# "Azərişıq"ın əməkdaşı Laçında minaya düşüb

Xəsarət alan şəxsin sağ ayağı amputasiya olunub



**"Azərişıq" ASC-nin əməkdaşı ötən gün Laçında minaya düşüb.**

Hadisə Laçın rayonunun Güləbird kəndində qeydə alınıb.

Biləsuvar rayon sakini, 1988-ci il təvəllüdlü Əbilov Mahir Ramiz oğlu xidməti vəzifəsini yerinə yetirən zaman piyada əleyhinə minaya düşüb.

*Xəsarət alan şəxsin sağ ayağı amputasiya olunub.*

*Faktla bağlı araşdırma aparılır.*



# Sabirabadda doğuş zamanı körpə ölüb

**Sabirabadda Doğum evində doğuş zamanı körpə ölümü qeydə alınıb.**

APA xəbər verir ki, Sabirabad Doğum evində Saatlı rayonunun Mirzəlal kənd sakini, 1995-ci il təvəllüdlü Qaçayeva Dürdanə Muxtar qızı doğuş zamanı körpəsini itirib.

Faktla bağlı araşdırma aparılır.


№ 213 (5495), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 noyabr 2021-ci il (çərşənbə axşamı)




# Azərbaycanda dağıdıcı zəlzələlər gözlənilmir

Afterşokların davam etməsi normaldır

**Noyabrın 20-də Şamaxıda baş verən iki zəlzələdən sonra həmin gecə yenə təkanlar hiss edilib.** Qeyd edək ki, zəlzələlərdən biri noyabrın 20-də yerli vaxtla saat 16:46-da Pirqulu seysmoloji stansiyasından 17 kilometr cənubda - Şamaxı rayonu ərazisində 5,1 bal, ikincisi isə 16:48-də 4,5 bal gücündə olub. Orta gücdə olan iki zəlzələdən sonra kiçik təkanlar qeydə alınıb. Mütəxəssislər bunun normal olduğunu, narahatlığa heç bir səbəb olmadığını bildirirlər.

**Milli Elmlər Akademiyasının nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli Trend-ə deyib ki, bu afterşokların davam etməsi normaldır:**

"İlin əvvəlindən bu günədək ölkəmizdə dörd minə qədər yeraltı təkan qeydə alınıb. Şamaxıda baş verən zəlzələ il ərzində hiss olunan 14-cü təkandır, qalanları isə hiss edilməyəcək dərəcədə zəif olub. Qısamüddətli proqnoz vermək qeyri-mümkündür. Yaxın zamanlar üçün ölkəmizdə dağıdıcı zəlzələlər gözlənilmir. Aparılan tədqiqatlar onu göstərir ki, zəlzələ ocaqlarında gərginlik yoxdur", - deyə Q.Yetirmişli əlavə edib.



# Azərbaycan Ordusu atəş açmayıb

Erməni hərbçinin yaralanması yalandır

**Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən bölmələri tərəfindən guya atəş açılması nəticəsində bir erməni hərbçisinin yaralanması barədə Ermənistan mətbuatının yaydığı məlumat yalandır.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

"Bildiririk ki, qeyd olunan istiqamətdə bölmələrimiz tərəfindən hər hansı atəş açılmayıb, sakitlikdir", - açıqlamada qeyd olunub.

# Samir Şərifov: "Satınalmalarla bağlı bəzi məsələlər hökuməti qane etmir"



**Satınalmalarla bağlı qaldırılan bəzi məsələlər hökuməti də qane etmir.**

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deyib.

Satınalmalarla bağlı qaldırılan bəzi məsələlərin hökuməti də qane etmədiyini qeyd edən nazir bu sahənin təkmilləşdirilməsi istiqamətində işlər aparıldığını deyib. Subsidiyalardan, xüsusən aqrar sahənin subsidiyalaşmasından və hökumətin bu sahədən gözləntilərindən danışan nazir subsidiya həcmlərinin artmasının gətirə biləcəyi risklərin hökumətin də gündəliyində olduğunu bildirib.

# Vaşinqton Əliyev-Paşinyan görüşünü səbirsizliklə gözləyir

## Səfir Li Litzenberqer: "Keçmişə nəzər salsaq görərik ki, liderlərin birbaşa təması əhəmiyyətli nəticələr verir"



**"Azərbaycan və Ermənistan liderlərinin görüşəcəyi xəbərinə çox şad oldum". Bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer bildirib. Səfir bildirib ki, Vaşinqton ötən il münaqişə başlayandan bəri çox çalışıb ki, tərəflərin birbaşa təması üçün imkan yaransın:**

"Bu, yaxşı nəticələr verə bilər. Keçmişə nəzər salsaq görərik ki, tərəflərin, xüsusilə də liderlərin birbaşa təması əhəmiyyətli nəticələr verib. Bu görüşün nəticələrinin necə olacağını bilmirəm, ancaq çox ümidliyəm ki, etimadın yaradılması və inkişafa doğru və münasibətlərin normallaşması üçün əlaqələrin yaradılması istiqamətində əhəmiyyətli addımdır. Amerikalı səfir tərəflərin Müdafiə nazirlikləri arasında birbaşa kontaktın yaradılmasını hər zaman dəstəklədiklərini vurğulayıb: "Bu, insidentlərin yaranmaması və itkilərdən qaçmaq üçün çox vacibdir.

(səh.2)



# Saakaşvilinin vəziyyəti sabit və qənaətbəxşdir

Keçmiş prezidentin müalicəsi davam etdirilir

**"Son məlumatlara əsasən, Mixeil Saakaşvilinin vəziyyəti sabit və qənaətbəxşdir".**

"Report"un yerli bürosu xəbər verir ki, bunu Gürcüstanın ədliyyə naziri Rati Breqadze "İmedi" telekanalının efirində deyib.

Nazirin sözlərinə görə, keçmiş prezidentin müalicəsi davam etdirilir: "Onun aclıqdan sonra qidalanması bərpa edilir və simptomatik müalicəsi aparılır".

(səh.4)

# Rus jurnalist ermənilərə yol göstərir

O, təklif edir ki, əri ölmüş qadınlar rus sülhməramlılarla evlənsin

**Rusiyalı jurnalist Valeriya Olyunina rus sülhməramlılarına Qarabağda yaşayan və müharibədə əri ölmüş erməni qadınlarla ailə qurmağı təklif edib. O, bu haqda "təklif"lərini özünün "Teleqram" səhifəsində paylaşıb.**

Xanım jurnalist belə olacağı təqdirdə rus sülhməramlılarının 4 il sonra da Qarabağda qalmaları üçün "səbəb" olacağını qeyd edib. Olyuninaya görə, əgər rus sülhməramlıları əri müharibədə ölmüş erməni qadınlarla ailə qursalar, Qarabağ üçün Rusiya uğrunda mübarizə aparırmış kimi savaşa biləcəklər...

(səh.5)




# Yoluxanların sayı azaldı

Ölənlərin sayında kəskin artım var




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 825 yeni yoluxma faktı qeydə alınıb, 1 283 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq" ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 33 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 574 799 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 539 494 nəfər müalicə olunaraq sağalıb, 7 657 nəfər vəfat edib, aktiv xəstə sayı 27 648 nəfərdir.

# Hər saniyədə qəzalar baş verir

Sükan arxasında mobil telefondan istifadə bütün dünyanın dərdidir



**"Bakılı oğlanlar" KVN komandasının məşhur səhnəciyi vardı; Cabir İmanov taksi sürücüsü obrazında. "Sürücü" şəhərin hər küçəsinə, hər tininə bələd köhnə "taksişnik" idi. Beləleri indi çox azdır. Həm də şəhəri tanımağa, deyirlər, ehtiyac da yoxdur. Çünki naviqator kimi müasir üsüllar var.**

Hərçənd, naviqator da bir çox hallarda yolu göstərə bilmir. Ünvanlar bəzən sistemə daxil edilmir, sürücü də ünvanı axtara-axtara qalır. Mövzumuz naviqatorların pis və ya yaxşı işləməsi deyil. Məsələ, naviqatora qoşulmuş sürücünün bir gözünün yolda, bir gözünün telefonda olması və belə vəziyyətdə qəza ehtimalının da artmasıdır.

(səh.6)



# Liderlər öncə sərhəddəki təxribatları müzakirə edəcək

İkinci məsələ sərhədlərin delimitasiyası mövzusudur

(səh.2)

# "Virusun yeni variantlardan narahatıq"

Türk alim: "Hər il kovid peyvəndi vurdurmalıyıq"

(səh.7)



# Koreyanın yeni şimal siyasəti 14 ölkəni əhatə edir



Prezident İlham Əliyev Koreya Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin sədri ilə danışıqlar aparıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Parkı qəbul edib.**

Prezident İlham Əliyev ölkələrimiz arasında mütəmadi təmasların olmasından məmnunluğunu ifadə edərək, bunu hər iki tərəfdə əməkdaşlığın dərinləşməsi üçün qarşılıqlı marağın göstəricisi kimi qiymətləndirdi. Dövlətimizin başçısı əminliyi bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olması bütün digər sahələrdə də əməkdaşlıq üçün müsbət təsirini göstərəcək.

İqtisadi əməkdaşlığa toxunan Prezident İlham Əliyev Koreya şirkətlərinin ölkəmizdə müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdiklərini bildirərək, böyük sənaye infrastrukturu layihələrinin icrasında bu şirkətlərin fəaliyyətini qeyd etdi və Bakının müasir memarlıq obrazında Koreya şirkətlərinin də payı olduğunu dedi.

Dövlətimizin başçısı yaxın vaxtlarda Azərbaycanın azad edilmiş torpaqlarında görüləcək işlərlə bağlı Koreya Respublikasında təqdimatın keçiriləcəyini vurğulayaraq bildirdi ki, bundan məqsəd Koreya şirkətlərinin azad olunmuş torpaqlarda işlərə cəlb edilməsindən ibarətdir. Azərbaycan Prezidenti işğal dövründə Ermənistanın müntəzəm olaraq şəhər və kəndlərimizi dağıtdığını qeyd etdi, Zəfərdən sonra həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinin başlandığını dedi, Azərbaycana dost ölkələrin şirkətlərinin bu işlərə dəvət edildiyini bildirdi.

Vurğuladı ki, Koreyada bu təqdimatın keçirilməsi də ölkələrimiz arasında dostluq münasibətlərini bir daha təsdiq edir.

Prezident İlham Əliyev Çong Soo Parkın səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Park xoş sözlərə görə minnətdarlığını bildirərək rəhbərlik etdiyi komitənin fəaliyyəti barədə məlumat verdi. Bildirdi ki, Koreyanın yeni şimal siyasəti 14 ölkəni əhatə edir və bu ölkələr sırasında Azərbaycan ən qərbdə yerləşən ölkədir. Koreya ilə Azərbaycan arasında bir çox oxşar cəhətlərin, o cümlədən geosiyasi mövqe cəhətdən oxşarlıqların olduğunu vurğulayan Çong Soo Park Koreyanın qitə və okeanları birləşdirən strateji yerdə, öz növbəsində Azərbaycanın isə müxtəlif beynəlxalq istiqamətləri birləşdirən nəqliyyat mərkəzində yerləşdiyini və Xəzər dənizi ətrafında nəqliyyat mərkəzi olduğunu məmnunluqla bildirdi.

Görüşdə Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərində rolu qeyd olundu, ikitərəfli və çoxtərəfli formatlarda, həmçinin iqtisadi zonalar arasında əməkdaşlıq imkanlarına toxunuldu. Müxtəlif sahələrdə, o cümlədən bərpa olunan enerji, nəqliyyat, logistika və turizm sahələrində əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycanın Vatikanda səfirliyi təsis edilib



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda səfirliyinin təsis edilməsi haqqında" qanunu imzalayıb.**

Qanuna əsasən, Azərbaycan Müqəddəs Taxt-Tacda (Vatikan) səfirlik açır.

Bundan başqa, Prezident İlham Əliyev noyabrın 22-də Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Nazirlər Kabineti Azərbaycanın Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini və digər məsələləri həll etməlidir.

Azərbaycan Xarici İşlər Nazirliyinə səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etmək tapşırılıb.

# XİN-də Azərbaycan və TÜRKSOY əməkdaşlığı müzakirə olunub



**22 noyabr 2021-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TÜRKSOY) Baş katibi Düsen Kaseinov ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən (XİN) verilən məlumata görə, tərəflər, Azərbaycan və TÜRKSOY arasında faydalı əməkdaşlıq və təşkilatın türk xalqlarının ortaq mədəniyyətinin təşviqi istiqamətində gördüyü işlər üzrə ümumi fikir mübadiləsi aparıblar.

Baş katib Düsen Kaseinov Azərbaycanda "Nizami İli"nin elan olunması ilə əlaqədar təşkilat tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verib və dahi şair və mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığına həsr edilmiş tədbirlərin gələn ilin mart ayınadək davam ediləcəyini söyləyib.

Baş katib Düsen Kaseinov TÜRSOY tərəfindən nəşr edilmiş, Nizami Gəncəvi yaradıcılığına həsr olunmuş kitabı və "Nizami xatirə nişanı"nı nazir Ceyhun Bayramova təqdim edib.



# Sarkisyan korrupsiya ilə bağlı ifadə verməyə çağırılıb

## Paşinyana müxalif olan, onun siyasətinə qarşı gedən bütün siyasətçiləri eyni aqibət gözləyir

**Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan təqsirləndirilən şəxs qismində Korrupsiyaya Qarşı Mübarizə Komitəsinə dindirilmək üçün çağırılıb. Bu barədə onun vəkili Amram Makinyan bildirib.**

Qeyd edək ki, söhbət 2019-cu ildə müxtəlif vaxtlarda yüksək vəzifəli məmurlara rüşvət verdiyini bildirən məşhur sahibkar Silva Ambartsumyanın işindən gedir. Bundan əvvəl Ambartsumyan Serj Sarkisyana rüşvət vermədiyini və onunla tanış olmadığını bildirib. O indi ifadəsini dəyişib.

**Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Sarkisyan daha əvvəl də bir neçə cinayət hadisəsinin personajı kimi ifadə verməyə çağrılıb. Politoloqun sözlərinə görə, ümumilikdə həm Koçaryanın, həm də Sarkisyanın hakimiyyətdə olduğu illərdə Ermənistanda misli görülməmiş korrupsiya prosesləri baş verib:** "Azərbaycan torpaqlarını işğalda saxlayan faşist təfəkkür erməni xalqının acyalavac olmağına, Ermənistanın ölkə sərvətlərinin dağıdılmasına və ölkədən çıxarılmasına rəvac veriblər. Bununla bağlı Paşinyan iqtidara gəldikdən sonra onları sıxışdırmağa və onların cinayət məsuliyyətinə cəlb olunmağı ilə bağlı göstərişlər verdi. Hətta Koçaryan həbs olundu, eyni formada Sarkisyanın da həbs ediləcəyi gözlənilirdi. Lakin Rusiyanın böyük təzyiqləri qarşısında Paşinyan geri addım atdı, Koçaryanı həbsdən buraxdı. Eyni formada Sarkisyana da Rusiyanın siyasi hakimiyyətindən müxtəlif dəstəkləri nəzərə alsaq, o zaman deyə bilərik ki, bu proses davamlı olacaq. Yəni təkcə Koçaryan və Sarkisyan deyil, onların ətrafındakı bir çox adamlar rüşvətxorluq və korrupsiyaya görə cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Lakin ümumilikdə onlara xaricdən olan dəstəyi, xüsusən Rusiyadan olan siyasi dəstəyi nəzərə alsaq, Paşinyanın yaxın zamanda hansısa kəskin addım atacağını düşünmürəm. Lakin Paşinyan mövqelərinin möhkəmləndiyinə əmin olan kimi, Koçaryanı həbs etdirəcək. Paşinyana müxalif olan, onun siyasətini kəskin tənqid edən keçmiş siyasi rəhbərlərin hamısı eyni aqibəti yaşayacaq".

**Aynurə Pənahqızı**

# Liderlər öncə sərhəddəki təxribatları müzakirə edəcək

## İkinci məsələ sərhədlərin delimitasiyası mövzusudur



**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçiriləcək. Danışıqlar Avropa İttifaqı Şurası Prezidentinin Brüssel Zirvəsi çərçivəsində Aİ-nin vasitəçiliyi reallaşan təklif əsnasında baş tutacaq.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva məlum təklifə Azərbaycan tərəfinin razılıq verdiyini açıqlayıb. O, noyabrın 19-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin İ.Əliyev və N.Paşinyanla telefon danışığının baş tutduğunu bildirib.

Danışıq zamanı Aİ Şurasının Prezidenti bu il dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə görüşü çərçivəsində hər iki ölkə liderinin görüşünün təşkil edilməsi təklifi ilə çıxış edib. Aİ Şurasının Prezidenti postmünaqişə dövrünün reallıqları müstəvisində Azərbaycanın mövqeyinin dəfələrlə dövlət başçısı tərəfindən, o cümlədən beynəlxalq platformalarda səsləndirildiyini və Brüssel Zirvəsinin eyni zamanda bu çərçivədə keçirilməsi nəzərdə tutulan görüşün əlavə imkanlar yaradacağını hesab etdiyini diqqətə çatdırıb.

**Gözlənilən görüş barədə "Şərq"ə danışan siyasi analitik Turab Rzayev bildirib ki, hər iki tərəf əvvəla Ermənistan-Azərbaycan sərhədindəki təxribatların azaldılması mövzusuna diqqət çəkəcək:**

"Sərhəddə yaranmış insan itkilərinə səbəb olan toqquşmaların aradan qaldırılması başlıca istiqamət olacaq. İkinci məsələ sərhədlərin delimitasiyası mövzusudur. Bu yöndə hər iki tərəf arasında və ya vasitəçilərin iştirakı ilə işçi qrupu, işçi komissiyasının yaradılacağının müzakirə ediləcəyini düşünürüəm".

Analitik nəqliyyat-kommunikasiya xətlərinin açılması ilə bağlı ümumi fikir mübadiləsi aparılacağını vurğulayıb və bunda əsas diqqətin Zəngəzur dəhlizinin açılması məsələsi üzərində cəmlənəcəyini söyləyib.

**Günəş Mərd**

# Vaşinqton Əliyev-Paşinyan görüşünü səbirsizliklə gözləyir

**İsmayıl Qocayev**



Səfir Li Litzenberqer: "Keçmişə nəzər salsaq görərik ki, liderlərin birbaşa təması əhəmiyyətli nəticələr verir"

**"Azərbaycan və Ermənistan liderlərinin görüşəcəyi xəbərinə çox şad oldum". Bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer bildirib. Səfir bildirib ki, Vaşinqton ötən il münaqişə başlayandan bəri çox çalışıb ki, tərəflərin birbaşa təması üçün imkan yaransın:**

"Bu, yaxşı nəticələr verə bilər. Keçmişə nəzər salsaq görərik ki, tərəflərin, xüsusilə də liderlərin birbaşa təması əhəmiyyətli nəticələr verib. Bu görüşün nəticələrinin necə olacağını bilmirəm, ancaq çox ümidliyəm ki, etimadın yaradılması və inkişafa doğru və münasibətlərin normallaşması üçün əlaqələrin yaradılması istiqamətində əhəmiyyətli addımdır. Amerikalı səfir tərəflərin Müdafiə nazirlikləri arasında birbaşa kontaktın yaradılmasını hər zaman dəstəklədiklərini vurğulayıb: "Bu, insidentlərin yaranmaması və itkilərdən qaçmaq üçün çox vacibdir. Biz Müdafiə nazirlikləri arasında birbaşa kontaktın yaradılması barədə razılığı alqışlayırıq. Təkcə təmasın yaradılması vacib deyil, həm də onun imkanlarından istifadə önəmlidir. Biz səbirsizliklə gözləyirik ki, tərəflər bu imkandan yararlanacaq". Səfir ABŞ şirkətlərinin azad edilmiş ərazilərə sərmayə yatırmasını istisna etməyib. Litzenberqer qeyd edib ki, Ağ Ev on illiklər ərzində məcburi köçkünlərə dəstək verib: "Azərbaycanlı məcburi köçkünlərin öz evlərinə qayıtması üçün qaytarılan ərazilər minalardan təmizlənməlidir. ABŞ-ın qeyri-hökumət təşkilatı Marşal Fondu bu istiqamətdə hökumətlə və ANAMA ilə çalışır. Şirkətlər Azərbaycana, xüsusən də azad edilmiş ərazilərə investisiya qoya bilər, bunun üçün isə onların tenderlərdə iştirakı lazımdır".

**"Münasibətlərin bərpası üçün regionda yeni imkanlar var"**

**ABŞ Azərbaycan-Ermənistan münasibətlərinin bərpasına dəstək vermək niyyətindədir:** "Bayden administrasiyası Cənubi Qafqazla, Azərbaycanla yaxından maraqlanır. Siz ABŞ rəsmilərinin Azərbaycan hökuməti ilə təmaslarını görə bilərsiniz, Blinken Azərbaycan rəsmiləri ilə telefon əlaqəsi saxlayır, bu yaxınlarda Dövlət Departamentindən də səfər oldu". Litzenberqer Azərbaycan və Ermənistan arasında münasibətlərə də toxunub: "Əlaqələrin normallaşması, iki ölkə arasında münasibətlərin bərpası üçün regionda yeni imkanlar var. Biz ABŞ olaraq bu prosesə dəstək vermək istəyirik". ABŞ pandemiya ilə mübarizə üçün Azərbaycana 6 milyon dollarlıq humanitar yardım ayırıb: "Pandemiya diplomatiyaya da təsir edib. İki ölkə arasında görüşlər, müzakirələr virtual formatda keçirilir". Onun sözlərinə görə, vaksinasiya pandemiyadan qurtulmaq üçün yeganə yoldur".

**ABŞ Azərbaycan-İran münasibətlərinin sabitləşməsindən şaddır**

*Litzenberqer bildirib ki, Azərbaycan yeganə ölkədir ki, həm Rusiya, həm də İranla həmsərhəddir və bu coğrafi şərait bəzən problemlər yarada bilir:* "Çox şadıq ki, artıq vəziyyət sabitləşib. Görünən odur ki, münasibətlər normala dönüb və İran bu istiqamətdə addımlar atıb, öz xəttini vəziyyətə uyğunlaşdırıb və kursunu dəyişib. Biz Azərbaycan üçün sabit, münaqişəsiz sərhədlər görmək istəyirik". Səfir vurğulayıb ki, ötən il münaqişədən bəri cənub sərhədlərində narkotik qaçaqmalçılığında artım müşahidə edilib: "Lakin yaxşı xəbər odur ki, Azərbaycanın gömrük və sərhəd xidmətləri narkotik qaçaqmalçılığı ilə mübarizədə öz imkanlarını daha da gücləndirib. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, onların istifadə etdiyi texnika və ləvazimatı ABŞ təmin edib. Azərbaycanın öz sərhədlərinin təhlükəsizliyini təmin etməyə yardımla bağlı ABŞ-ın proqramı var. Bu texniki ləvazimatların çeşidi genişdir. Həmçinin ABŞ-ın dəstəyinə Azərbaycanın gömrük və sərhəd xidmətlərinin əməkdaşları üçün treninq proqramları da aiddir. Eyni zamanda, biz bu dəstəyi Azərbaycanın Xəzər dənizindəki çox vacib enerji infrastrukturunu qoruması üçün veririk. Təqdim etdiyimiz texnikalar Azərbaycanın Xəzərdəki enerji infrastrukturunu nəzarətdə saxlamağa imkan verir. Bir neçə həftə öncə Azərbaycana təqdim etdiyimiz radar vasitəsilə Xəzər dənizində siqaret qaçaqmalçılığı edən gəmi saxlanıldı. Həqiqətən şadam ki, biz Azərbaycanın öz sərhədlərini nəzarətdə saxlaması və qoruması üçün imkanlarına dəstək veririk. Bu, bizim də marağımızdadır. Biz Azərbaycanın müstəqilliyini dəstəkləyirik".

**"ABŞ və Rusiya ancaq ATƏT-in Minsk qrupunda yaxşı əməkdaşlıq edir"**

**Səfir bəyan edib ki, əgər Rusiya səmimiyyət və xoş niyyətini göstərərsə, ABŞ istənilən mövzu barədə Rusiya ilə konstruktiv müzakirələrə hazırdır:** "Çox təəssüf ki, biz hər zaman bunu görmürük. Rusiyanın əhəmiyyətli dərəcədə böyük hərbi qüvvələrini Ukrayna ətrafında toplaması ABŞ-ı narahat edir. Biz inanırıq ki, bu cür addımlar regionda yalnız gərginliyi artırır və Avropa qitəsində sabitliyə yardım etmir". Səfirin sözlərinə görə, ABŞ və Rusiyanın ancaq bir platformada - ATƏT-in Minsk qrupu çərçivəsində yaxşı əməkdaşlıqları mövcuddur: "Bu yaxınlarda həmin format çərçivəsində biz Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin iki dəfə görüşünü təşkil etdik. Bu format səmərəli olduğu müddətcə, biz burada əməkdaşlıq edəcəyik. Təbii ki, biz bu ölkələrin liderlərini və rəsmilərini bir araya gətirən digər formatları da dəstəkləyirik".

**ABŞ səfiri tezliklə Ağdama səfər edəcək**

**Litzenberqer deyib ki, Azərbaycanın müxtəlif regionlarına səfər edib:** "Geri qaytarılmış ərazilərə gəlincə, mən Zəngilanda olmuşam". O, ABŞ səfirliyinin əməkdaşlarının Füzuli və Ağdamda səfərdə olduqlarını xatırladıb: "Mən özüm də tezliklə Ağdama səfər edəcəyəm". Səfir vurğulayıb ki, Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Lənkəran, Şəki, Gəncə və Naxçıvanda səfərdə olub: "Regionlara səfər mənim işimin bir hissəsidir. Elə ərazilər var ki, mən ora hələ səfər etməmişəm. Təbii ki, həmin ərazilərə də səfər edəcəyəm".



# Liderlərin bir araya gəlməsinə az qaldı

## Rusiya Brüssel görüşünə seyrçi qalmayacaq

İsmayıl Qocayev

**Dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş baş tutacaq. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib ki, Avropa İttifaqının vasitəçiliyi ilə iki ölkə liderinin görüşünün təşkili təklifinə rəsmi Bakı tərəfindən razılıq verilib. XİN rəsmisi qeyd edib ki, Azərbaycan tərəfi hər zaman siyasi dialoqa açıqdır və bu kimi təmasları müsbət qarşılayır:**

”Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla noyabrın 19-da telefon danışıqları baş tutub. Şarl Mişel hər iki ölkə liderinin görüşünün təşkil edilməsi təklifi ilə çıxış edib. Postmünaqişə dövrünün reallıqları müstəvisində Azərbaycanın mövqeyi dəfələrlə dövlət başçısı tərəfindən, o cümlədən beynəlxalq platformalarda səsləndirilib. Bu xüsusda Brüssel Zirvəsinin və bu çərçivədə keçirilməsi nəzərdə tutulan görüşün əlavə imkanlar yaradacağını hesab edirik”. Bundan əlavə olaraq insidentlərin qarşısının alınması məqsədi ilə Azərbaycan və Ermənistan arasında müdafiə nazirləri səviyyəsində birbaşa əlaqənin yaradılması haqqında da razılıq əldə olunub. Xatırladaq ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabr ayında görüşü barədə informasiyalar var idi. Bu haqda müxtəlif proqnozlar səsləndirilsə də, Moskvanın vasitəçiliyi ilə görüş baş tutmadı. Halbuki, Moskvada 9 noyabrda görüş olacağı ilə bağlı Rusiyanın hakimiyyətə yaxın, ən nüfuzlu agentlikləri diplomatik mənbələrə istinadla məlumat yaymışdılar. Daha sonra bu görüşün Soçidə baş tutacağı açıqlanmışdı. Moskva görüşünün baş tutmamasının səbəbi kimi İrəvanın imtinası göstərildi və bunu rusiyalı politoloqlar da etiraf etdilər. Əvəzində isə görüşün nəzərdə tutulduğu günlərdə Ermənistanın təxribatları başladı. 7 noyabrda keçmiş müdafiə naziri Arşak Karapetyan Xankəndiyə qanunsuz səfər etdi. 8 noyabrda Şuşa yaxınlığına diversantlar göndərildi. Laçın istiqamətində hərbi mövqelərin qabağa çəkilməsinə cəhd olundu. Daha sonra Şuşa ətrafındakı postda terakt törədildi və ardınca sərhəddə ardıcıl atəşkəs pozuntuları baş verdi. Bir sıra şərhçilər erməni təxribatının arxasında Paşinyanın deyil, Rusiyanın hərbi-siyasi elitasına bağlı ”Qarabağ klanı”nın dayandığını söylədilər. Qısacası, Kremlin təşəbbüsü ilə hər hansı görüş reallaşmadı və Paşinyan Aİ rəhbərliyinin Brüssel görüşünə tərəddüd etmədən ”hə” cavabı verdi. Əksər ekspertlərin fikrincə, görüşün Moskvadan kənarda olması pozitiv məqamdır. Brüsseldə Azərbaycan və Ermənistan arasında hansısa ciddi sənəd imzalanmasa belə bu faktın özü çox önəmlidir. Moskva görməlidir ki, iki ölkə arasında münasibətlər başqa formatda da yaxşılaşa bilər. Brüssel görüşünə Rusiya və Qərb ölkələrindən də reaksiyalar gəlməkdədir. ABŞ-ın Azərbaycandakı səfiri Örl Lisenberger bildirib ki, Vaşinqton tərəflər arasında münasibətlərin normallaşmasına yönəlmiş bütün əlaqələri dəstəkləyir: ”Görüş haqqında xəbəri görmək mənə xoş oldu. ABŞ iki ölkə liderlərinin təkbətək görüşünün baş tutması üçün inadla səy göstərdi. Ümidvaram ki, bu görüş iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində irəli atılmış addım olacaq”. Səfir Ağ Evin ölkələrlə birbaşa əlaqələrin qurulmasını dəstəklədiyini qeyd edib: ”Bu iradəni alqışlayır və tərəflərin bundan istifadə edəcəyinə ümid edirik”.

**Qafqazşünas, ”Regnum” agentliyinin redaktoru Stanislav Tarasov da bildirib ki, Brüssel görüşü ikinci Qarabağ müharibəsindən sonra ölkə liderlərinin üçüncü təkbətək görüşü olacaq.** Onun sözlərinə görə, burada intriqa ondan ibarətdir ki, onların 2020-ci il noyabrın 9-da imzalanmış sazişin ildönümünə həsr olunmuş üçüncü görüşü də Moskvada baş tutmalı idi: ”Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bu məlumatı nə təkzib, nə də təsdiq edirdi. İlham Əliyev və Paşinyan dialoqu Rusiya platformasından Qərb platformasına köçürür. Bu, Bakının irəli sürdüyü yeni, hələlik naməlum olan şərtlərlə əlaqəli ola bilər”.

**Liderlərin Qərbin təşəbbüsü ilə reallaşacaq görüşünü ”Şərq”ə təhlil edən siyasi şərhçi Asif Nərimanlı deyib ki, görüşün təşkili Avropa İttifaqının sərhədlərin demarkasiya-delimitasiya prosesində vasitəçi olmaq, bunun üzərindən bölgədəki güc balansında yerini tutmaq niyyətindən qaynaqlanır. Analitik qeyd edib ki, rəsmi Bakı buna razıdır:** ”Azərbaycan rəhbərliyi sərhədlərin demarkasiya-delimitasiya prosesində Aİ-nin texniki və mütəxəssis dəstəyindən yararlanmaq istədiyini açıqlayıb. Paşinyan da Brüsselin prosesdə iştirakında maraqlıdır. Hər iki tərəf bundan Rusiyanın vasitəçiliyi qarşısına alternativ çıxarmaq, Moskvanın qurduğu masalarda maraqlarını müdafiə etmək üçün istifadə edə bilər. Bu məsələdə Brüsselin vasitəsilə, yəni Rusiyasız razılaşma əldə olunması diqqət çəkir. Çünki Moskva birbaşa təmasda heç vaxt maraqlı olmayıb. Bakı və İrəvan toqquşmaların qarşısını almaq məqsədilə müdafiə nazirlərinin birbaşa əlaqə yaratması üzərində razılaşıblar. Müdafiə nazirlərinin birbaşa əlaqə yaratması təkcə insidentlərin qarşısını almaq yox, həm də Bakı-İrəvan xəttində postmünaqişə dövrü üçün vacib olan münasibətlərin normallaşması baxımından da əhəmiyyətlidir. Bu, sonrakı dövrdə iki ölkəyə heç bir vasitəçi olmadan müzakirələr aparmaq imkanı verir və hər iki tərəfin maraqlarına uyğundur. Xüsusilə Rusiyanın vasitəçilik adı ilə həyata keçirdiyi siyasət fonunda əhəmiyyətlidir”.

> “Putin Brüssel danışıqlarına qədər Moskvada planlaşdırdığı üçtərəfli görüşün baş tutması üçün əlindən gələni edəcək”

**A.Nərimanlıya görə, görüşdə bir neçə məsələ prioritet ola bilər:** ”Aİ-nin sərhədin müəyyənləşməsi prosesində hansısa formada iştirakı mümkündür. Brüsselin humanitar məsələlərdə vasitəçiliyi, saxlanılan ermənilərlə mina xəritələrinin dəyişdirilməsi və s. addımlar atıla bilər. Görüşün keçirilməsi iki kontekstdə xüsusilə diqqət çəkir. Birincisi, müharibədən sonra ölkə başçısı İlham Əliyevlə Nilol Paşinyan ilk dəfə Rusiyanın vasitəçiliyindən kənarda bir araya gələcək. İkincisi isə müharibənin ildönümündə üçtərəfli görüş planı baş tutmayan Moskvanı Brüssel-Qərb qabaqlamış olacaq. Bəs, Rusiya buna seyrçi qalacaqmı? Mümkündür ki, Rusiya Brüssel görüşünə qədər Moskvada planlaşdırdığı üçtərəfli görüşün baş tutması üçün əlindən gələni edəcək. Kommunikasiya və sərhəd məsələsində ilkin razılaşmalarla Aİ-ni ofsayta salacaq”.

# Baş nazir təkbaşına qərar vermir

## Onun bir nömrəli vəzifəsi hakimiyyətdə qalmaqdır

**44 günlük müharibədən sonra Ermənistan ordusunu yenidən toparlamaq müşkülə çevrilib. Baş nazir Nikol Paşinyan qısa müddət ərzində 4 dəfə müdafiə nazirini dəyişib. Nazirlərdən üçü İrəvanın kapitulyasiya aktını imzalamasından sonra vəzifəsindən qovulub.**



Ekspertlərə görə, Paşinyan məğlubiyyəti ordunun üzərinə atmaq istəsə də, ordu içindəki Rusiyaya yaxın generalitetin sərt müqaviməti ilə üzləşib. Nəticədə müdafiə nazirləri bir-birini əvəzləməyə başlayıb. Ötən günlərdə vəzifəsindən azad olunan müdafiə naziri Arşak Karapetyan son həftələr yalnız təxribatçı addımlar atmaqla məşğul olub və bütün bunlar Paşinyanın onsuz da daralmaqda olan təsir dairəsini daha da kiçildib. Xatırladaq ki, müharibə zamanı Ermənistanın müdafiə naziri postunu David Tonoyan tuturdu. O, 2020-ci il noyabrın 20-də işdən çıxarıldı. Həmin vəzifəyə Vaqarşak Arutyunyan təyin olunub. Arutyunyan 2021-ci il iyulun 20-də vəzifəsindən azad olundu. Həmin il avqustun 2-də Arşak Karapetyan Ermənistanın müdafiə naziri təyin olunmuşdu. Lakin bəllidir ki, Arşak Karapetyanı Suren Papikyanın əvəzləməsi Ermənistan üçün problemin həlli anlamına gəlmir. Suren Papikyanın hərbi təhsili və təcrübəsi yoxdur. Ona görə də çoxları hesab edir ki, Paşinyan iddia edildiyi kimi ordunu Rusiyaya, yaxud ”Qarabağ klanı”na bağlı hərbçilərdən təmizləmir, müdafiə sistemini möhkəmləndirməyi düşünmür. Baş nazirin yeganə məqsədi özünə sadiq adamları irəli çəkmək, hakimiyyətini möhkəmləndirməkdir. Rusiyaya yaxınlığı ilə tanınan Karapetyanı ”sorosçu” Suren Papikyanla əvəzləmək Paşinyanı Kremlin qəzəbinə tuş elədi. Bu arada Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisi Artak Davtyanın da həbs oluna biləcəyi ilə bağlı xəbər yayılıb. Generalın bir neçə ağır maddə ilə cinayətdə şübhəli bilinərək həbs olunan ”Patron” ləqəbli silah alverçisi Davit Qalstyanla biznesinin olduğu üzə çıxıb. Cinayəti sübuta yetirilərsə, baş qərargah rəisi azı 7 il həbs oluna bilər.

> “Paşinyanın məqsədi ordunu Rusiyaya və “Qarabağ klanı”na tabe olan hərbçilərdən təmizləməkdir”

**Ermənistan ordusunda yaşananları ”Şərq”ə təhlil edən ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, müharibəni uduzmuş və ordusunun 70 faizini itirmiş bir ölkə üçün 4 dəfə müdafiə naziri dəyişmək hələ azdır.** Ekspertin sözlərinə görə, yeni təyinat alan nazirlər özləri də ordudakı bərbad vəziyyəti gördükdən sonra məcburən istefa vermək düşüncəsinə qapılırlar: ”Ordu rəhbərliyindəki dəyişikliklərin Baş nazir Nikol Paşinyanın nüfuzu ilə əlaqəsi var. Paşinyan haqlı olaraq hesab edir ki, ordu içərisində Rusiyaya bağlı kadrlar qaldığı müddətcə baş nazirin hökumətdə, ölkə arasında reytinqi yüksəlməyəcək. Hətta hakimiyyətdə qalması belə sual altına düşəcək. Baş nazirin Qərbin adamı olması bəllidir. Ona görə də hər fürsətdə ordunu ruslardan təmizləməyə çalışır. Ruslar deyəndə əsasən Moskvaya bağlı ”Qarabağ klanı”na tabe olan hərbçilərdən söhbət gedir. Birinci Qarabağ müharibəsində əsas iştirakçılar məhz ”Qarabağ klanı” və Rusiyaya sadiq generalitet idi. Paşinyan üçün ən önəmli məqsəd daxildə, xaricdə və Qarabağ məsələsində normallaşdırma prosesini sürətləndirmək üçün islahatların keçirilməsinə nail olmaqdır. Əgər baş nazir ordudakı yüksək və aşağı ranqlı rus hərbçilərini sıradan çıxara biləcəksə, öz məqsədlərinə doğru irəliləyə biləcək. Əks halda qarışıq ordu Paşinyan üçün ciddi risk yaradacaq. Məlum olduğu kimi Paşinyan Avropa İttifaqının təşəbbüsü ilə dekabrın 15-də Prezident İlham Əliyevlə görüşəcək. Təbii ki, Rusiya bunu sakitcə izləməyəcək. Görüş ərəfəsində və ya təmaslar vaxtı müəyyən insidentlərin olması mümkündür. Azərbaycan növbəti təxribatlara hazır olmalıdır. Ermənistan ordusunda Paşinyana bağlı olmayan, ümumiyyətlə, hökuməti saymayan qüvvələr var. O baxımdan Rusiya istənilən anda təxribata əl ata bilər. Moskvanın məqsədi öz ordusunu Azərbaycan-Ermənistan sərhədinə yerləşdirməkdir”.

**S.Hümbətov vurğulayıb ki, Ermənistan 4 dövlətlə həmsərhəddir və iki ölkənin sərhədi Rusiya hərbçiləri tərəfindən mühafizə olunur:** ”Azərbaycanla sərhədə də ruslar gəlsə, bu o deməkdir ki, Ermənistan sərhədlərinin 75 faizi Moskvanın nəzarətində olacaq. Bu faktın özü Paşinyanın ”mühasirəyə alınması”, ortada sıxışdırılması anlamına gəlir ki, Kreml rəhbəri bununla istədiyi anda erməni baş nazirə asanlıqla təzyiq göstərə bilər. Reallığı yaxşı dərk edən Paşinyanın hədəfi ordunu ruslarından əlindən xilas etmək, ümumiyyətlə, Rusiyanın İrəvana təzyiq rıçaqlarını ortadan qaldırmaqdır. Buna nisbətən nail olarsa, gələcəkdə Paşinyan NATO ilə əməkdaşlıq məsələsini, Qərb ordularının ölkədə yerləşdirilməsini də gündəmə gətirə bilər. Ancaq hələlik Paşinyanın ordu ilə bağlı konkret hansı addımları atacağı bəlli deyil. Çünki baş nazir qərarı təkbaşına vermir və dəstək aldığı dairələrin ”məsləhəti” ilə hərəkət edir”.

**İsmayıl Qocayev**

# Bakı-Tehran dil tapdı, əməkdaşlıq sürət alır

## Azərbaycan və İran münasibətlərindəki gərginlik xarici amillərdən qaynaqlanırdı

Aynurə Pənahqızı

**Baş nazirin müavini, İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İrana səfəri çərçivəsində İran İslam Respublikasının Xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə də görüşüb. Hüseyn Əmir Abdullahian Azərbaycan torpaqlarının işğaldan azad olunması və Zəfər Gününün ildönümü münasibətilə təbriklərini çatdırıb, İranın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib.**

Ölkəmizin ərazi bütövlüyünə İranın davamlı dəstəyini və prinsipial mövqeyini vurğulayan Abdullahian İran şirkətlərinin işğaldan azad olunmuş Azərbaycan torpaqlarının yenidən qurulması və bərpası işlərində iştirak etməyə hazır olduğunu bildirib. Görüşdə iki ölkə arasında fəaliyyət göstərən Hökumətlərarası Dövlət Komissiyasının əhəmiyyəti qeyd olunub və komissiyanın aktiv fəaliyyətindən məmnunluq ifadə edilib. İki ölkə arasında iqtisadi-ticari əlaqələrin, entail, turizm, nəqliyyat, energetika, tranzit daşımaları, birgə sənaye və investisiya layihələri, informasiya kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın davamlı inkişafı üçün səylərin daha da artırılması və görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd olunub. Görüşdə həmçinin, regiondakı vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən politoloq Nəzakət Məmmədova deyib ki, ABŞ-da və İsraildə hakimiyyətə gələn istənilən administrasiya İranı düşmən ölkə elan edir. Bu, hər bir administrasiyanın 1979-cu il hadisələrindən sonra ölkənin İrana dair xarici siyasət kursuna sədaqətini təsdiq edir:** ”Yenilənən milli təhlükəsizlik strategiyalarında da İran daima Birləşmiş Ştatların və İsrailin təhlükəsizliyinə əsas təhdid törədən ölkələr sırasında yer alır. İran həmişə hədəfdədir, sadəcə, onunla münasibətləri diplomatiya, yoxsa hərbi vasitələrlə aparmağa dair fikir ayrılıqları var. Təbii ki, məsələnin kökündə İran və İsrailin Yaxın Şərqdə liderlik ambisiyaları durur. ABŞ-ın özündə İranyönümlü qüvvələrin və yəhudi lobbisinin məsələyə fərqli yanaşmaları durur. Hərbi-sənaye konsernləri, Pentaqon, yəhudi lobbisi və başqa qüvvələrin maraqları toqquşur. Lakin İran Yaxın Şərqin heç bir ölkəsinə bənzəmir. Oraya birbaşa hərbi müdaxilə inandırıcı görünmür. Odur ki, ABŞ daha çox SSRİ kimi nəhəng dövləti parçaladığı üsullarla İranı zəiflətmək istəyir. İranın Yaxın Şərqdə böyük geosiyasi, ideoloji, hərbi təsir vasitələri var. ABŞ Obama dövründə bunu az da olsa, qəbul edirdi. Lakin Tramp və yəhudi lobbisi bununla barışmaq istəmədi və vəziyyət eskalasiyaya doğru getməyə başladı. ABŞ qarşısında İrana qarşı böyük bir ittifaq durur. Bu, İsrailə qarşı olan və ABŞ-dakı katolik güc mərkəzləri, xüsusən Pentaqonla ittifaqda olan Avropa Birliyi və NATO-dakı katolik ölkələri, Çin, Rusiyadır. Artıq son müşahidələr bunu deməyə əsas verir ki, Avroatlantik və Anqlo-sakson ideologiyaları çox zəifləyib. Onun yerini İranla



geosiyasi, enerji və ticarət maraqları olan Avropa Birliyi, İngiltərə, Çin, Rusiya, Türkiyə yaxınlığı tutur”.

*Azərbaycana gəlincə, politoloq bildirib ki, Azərbaycan İrana qarşı heç bir ideoloji, kəşfiyyat, diplomatik fəaliyyətlərdə yer almır:* ”Düşünürəm ki, beynəlxalq təcrid başa çatsa da, sanksiyalar aradan qaldırılsa da, İran əvvəlkindən daha artıq bir mürəkkəb dövrə qədəm qoyub. Çünki Suriya kimi bir müttəfiq sıradan çıxarılıb. İraq-İran, Suriya-İran sərhədində kürd dövləti yaradaraq burada ABŞ-ın hərbi bazalarının yerləşdirilməsi, üstəlik, Əfqanıstandan çıxarılan ABŞ kontingentinin yerinə ”Taliban”ın hakimiyyətə gətirilməsi ”Damokl qılıncı” kimi İranın ərazi bütövlüyü üzərində asılaraq onun hərtərəfli təcrid olunmasına hesablanıb. İran Türkiyə ilə birgə Yaxın Şərqdə əsas hədəfdə olan ölkələrdir. Hətta düşünmək olar ki, Avropa Birliyi Ermənistanla tərəfdaşlıq imzalamaqla və Rusiya buna razılıq verməklə, İranın ABŞ tərəfindən tam təcridinə imkan verməmək və ona Avropaya çıxış imkanı yaratmaq məqsədi daşıyıb. İran özü də bir neçə il əvvəl Xəzərin statusuna dair razılaşmaya gələrək Britaniyanın buradakı neft maraqlarını və Azərbaycanın suveren hüquqlarına hörmətini qəbul etdi, Bakı-Qars, Şimal-Cənub layihələrinə qoşulmaq istəməklə Çindən İngiltərəyədək olan nəhəng Avrasiyanı birləşdirən kommunikasiya xəttinə daxil olmaq istədi. Azərbaycanın bu magistralda əsas yer tutan ölkələrdən biri olduğu, eyni zamanda Tehranda Azərbaycan, Rusiya, İran prezidentlərinin Şimal-Cənub layihəsini qəbul etdiyini nəzərə alsaq, Azərbaycanın İrana qarşı cəbhədə yer almayacağını demək olar. Doğrudur, son dövrlərdə münasibətlərdə aşkar gərginlik baş verdi, bu hətta diplomatik demarşlardan da ötə bir xarakter aldı. Lakin Azərbaycan və İran münasibətlərindəki gərginlik endogen, yəni daxili, təbii səbəblərdən yox, ekzogen, xarici amillərdən qaynaqlanırdı. Ona görə də tezliklə sakitlik yarandı və əməkdaşlıq mühiti bərpa olundu. Ehtimal ki, İran Zəngəzur dəhlizi məsələsinə narahat olmuşdu və görünür, Azərbaycan ona narahatlıq üçün əsas olmadığına dair təminat verib. Çünki Zəngəzur İranın Ermənistan vasitəsilə şimala açılan tək qapısıdır. Digər tərəfdən, İran şirkətlərinə də işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərində iştirak etmək üçün pay ayırmaqla ölkəmiz xoş münasibətini ortaya qoymuş oldu. Belə bir şəraitdə ikitərəfli əməkdaşlıq üçün geniş imkanlar açılır və ümid edək ki, gərginlik arxada qalmış olur. Üstəlik, İran Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki ”ağıllı kənd” layihələrindən İsrailin istifadə edəcəyindən narahat idi. Lakin bu günlərdə Bakıda Rusiya-Azərbaycan biznes forumu keçirildi və Rusiyanın iş adamlarının da həmin ”ağıllı kənd” layihələrində iştirakı barədə müzakirələr aparıldı. Bu isə Azərbaycanın öz ərazisində üçüncü ölkələrlə heç bir gizli işbirliyinin olmadığını və regionun bütün ölkələrinə açıq olduğunu göstərdi”.



# Liderlərin Brüsseldəki görüşü nəticəsiz qalacaq

## Ekspert hesab edir ki, əsas razılaşmalar Putinin təşəbbüsü ilə Moskvada gerçəkləşəcək görüşdə reallaşacaq

**"Uzun fasilədən sonra dekabrın 15-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri bir araya gələcək.** Azərbaycan və Ermənistan liderlərinin gec-tez görüşəcəyi bəlli idi. Xüsusilə noyabrın 16-da Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı genişmiqyaslı təxribat törətməsi və bir müddətdir Zəngəzur dəhlizi ətrafındakı müəmma bu görüşü vacib edirdi".

**Bu sözləri "Şərq"ə açıqlamasında siyasi-şərhçi Turan Rzayev deyib. Politoloq sözlərinə əlavə edərək bunları söyləyib:** "Gözlənildiyi kimi, görüşün dekabrın 15-də Brüsseldə Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində baş tutacağı açıqlandı. İndiki halda görüşlə bağlı iki maraqlı məqam var. Birincisi, görüşün Moskvada və ya Soçidə deyil, Brüsseldə keçirilməsidir. İkincisi, görüşün Rusiya Prezidenti Vladimir Putin deyil, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilməsidir. Prinsip etibarilə Şarl Mişel vasitəçi ola bilər, lakin moderator yenə də Putindir. Əvvəla, ona görə ki, Putin yaxşı başa düşür ki, görüşün Brüsseldə keçirilməsini Prezident İlham Əliyevdən çox Paşinyan istəyir. Aydın məsələdir ki, Paşinyan prosesin əvvəlindən Aİ-nin sərhədin demarkasiya-delimitasiya prosesində vasitəçi olmasını, bu yolla bölgədəki güc balansını dəyişməyi istəyir. Putin onu da yaxşı bilir ki, Kremlin prosesdəki dominantlığı gec-tez həm Aİ-nin narazılığına səbəb olacaq, həm də Paşinyana daxildəki antirusiya qüvvələrini artırmağa kömək edəcək. Görünür, Putin Paşinyanın Brüsselin vasitəçiliyi ilə gerçəkləşəcək danışıqlarda ortaya qoyacağı mövqedən narahatdır. Təsadüfi deyil ki, Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin dekabrın 15-də görüşəcəyi xəbəri yayıldıqdan sonra Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Kremlin mətbuat xidmətindən yayımlanan məlumatda bildirilib ki, Putin və Paşinyan 2020-ci ilin 10 noyabr və 2021-ci ilin 11 yanvar tarixlərində imzalanmış üçtərəfli bəyanatların yerinə yetirilməsi kontekstində regiondakı vəziyyətin və onun sabitləşdirilməsi üçün görülən tədbirlərin müzakirəsini davam etdiriblər. Görünür, Putin Paşinyanla telefon danışığı zamanı ümumi mövzular ətrafında Ermənistan liderinin mövqeyini müəyyənləşdirməyə çalışıb. Ehtimal ki, Kreml rəhbəri buna nail olub. Azərbaycana gəldikdə isə rəsmi Bakı üçün görüşün Moskvada, Soçidə, yoxsa Brüsseldə keçirilməsinin, ya da vasitəçinin kim olmasının fərqi yoxdur. Rəsmi Bakı üçün maraqlı olan tək şey sərhədlərin demarkasiya-delimitasiya prosesinin yekunlaşması, Zəngəzur dəhlizinin açılmasıdır. Yəni 10 noyabr bəyanatının qeyd-şərtsiz icra edilməsidir".

Ekspert hesab edir ki, Brüsseldə baş tutacaq və ehtimal ki, uğursuzluqla nəticələnən görüş sonrası 2022-ci ilin ilk həftələrində Putinin təşəbbüsü ilə Soçidə və ya Moskvada görüş keçiriləcək: "Ehtimal ki, elə həmin görüşdə də Zəngəzur dəhlizinin açılmasını özündə ehtiva edən yeni bəyanat imzalanacaq".

**Aynurə Pənahqızı**

# İrəvanda müxaliflər yenə küçələrə çıxıb

## Onlar imzalanması nəzərdə tutulan sənədlərin açıqlanmasını tələb edirlər

**Ermənistanın paytaxtı İrəvanda etiraz aksiyaları keçirilib. Aksiyalar şəhərin müxtəlif yerlərində baş tutub. Etiraz aksiyasının təşəbbüskarları siyasi partiyalar və ictimai təşkilatlar olub. Küçələrə axışanlar Azərbaycanla sərhədlərin delimitasiyası və demarkasiyasına qarşı çıxdıqlarını, imzalanması nəzərdə tutulan sənədlərin açıqlanmasını istədiklərini deyiblər.**



"Bu aksiyaların heç bir əhəmiyyəti yoxdur. Çünki Ermənistan 10 Noyabr bəyanatının müddəalarını gec-tez yerinə yetirməlidir"

İrəvanın bəzi küçə və prospektlərində aksiyalar səbəbindən avtomobillərin hərəkətində problem yaranıb. Polis yolları açmaq üçün aksiya iştirakçılarını ərazidən uzaqlaşdırıblar. Müxaliflər aksiyaların davamlı olacağını, Respublika meydanında mitinq keçiriləcəyini deyiblər. Xatırladaq ki, bir müddət əvvəl də Respublika meydanında Baş nazir Nikol Paşinyan əleyhinə etiraz aksiyası keçirilmişdi. Onlar Nikol Paşinyanın istefasını tələb etmişdilər. Erməni mediası hakim elitanın təşviş içində olduğunu, polis orqanlarına küçələrdə nəzarəti gücləndirmək əmrinin verildiyini yazıblar.

**Ermənistanda yenidən vüsət almış etirazları "Şərq"ə təhlil edən siyasi şərhçi Tural İsmayılov vurğulayıb ki, Ermənistanda revanşist müxaliflər Paşinyan hökumətini 10 noyabr bəyanatından sonra daim təhdid ediblər.** Analitikin fikrincə, üçtərəfli sazişin bəzi müddəalarının icrasının gecikdirilməsinin səbəbləri arasında Paşinyan iqtidarının "dividendlər" qazanmaq, vaxt udmaq məqsədləri ilə yanaşı, siyasi müxalifətdə təmsil olunan qüvvələrdən çəkinmək də yer alır: "Koçaryan və Hayastan bloku dəfələrlə parlamentdə və küçələrdə müxtəlif etiraz aksiyaları keçiriblər. Paşinyan iqtidarı əleyhinə şüarlar səsləndiriblər. İndiki aksiyaları da ümumi planın tərkib hissəsi kimi xarakterizə etmək lazımdır. Əlbəttə, Ermənistana təsir etmək istəyən müxtəlif kənar qüvvələr də var. Paşinyan hakimiyyəti Qərbin müəyyən imperialist siyasi institutları və xaricdəki erməni lobbisi tərəfindən idarə olunur. Rusiya elitasından Ermənistana daim təzyiqlər var. Koçaryan və Hayastan blokunu açıq-aşkar dəstəkləyən Kremlin yüksək ranqlı nümayəndələri, siyasi elita hazırda Paşinyana təzyiq etmək üçün bu cür aksiyalar təşkil edə bilərlər. Ümumilikdə isə düşünürəm ki, Koçaryan və tərəfdarlarının keçirdiyi bu aksiyaların heç bir əhəmiyyəti yoxdur. Çünki Ermənistan 10 Noyabr bəyanatının müddəalarını gec-tez yerinə yetirməli, ən əsası isə sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı çağırışlara mütləq şəkildə cavab verməlidir. Bu, bir tərəfdən qalib ölkə kimi Azərbaycanın diktə etdiyi şərtdir. Ermənistan buna əməl etməyə məcburdur. Digər yandan üçtərəfli sazişə imza atmış Rusiyanın da bununla bağlı açıq çağırışları var".

**İsmayıl Qocayev**

# Lukaşenkonun proqnozları reallığı əks etdirmir

## NATO da, Rusiya da nüvə müharibəsinin nəylə nəticələnəcəyini yaxşı anlayır




**Aynurə Pənahqızı**

**Belarus Prezidenti Aleksandr Lukaşenko NATO-nu nüvə müharibəsi ilə hədələyib. O, BBC-yə müsahibəsində bildirib ki, Qərb dövlətləri hələ də İkinci Dünya müharibəsi zamanı verdiyi itkilərə görə Belarusa borcludurlar, buna baxmayaraq yenidən dövlətin ərazisinə soxulub orada hərbi əməliyyatlara başlamağa çalışırlar:**

"Siz başa düşməlisiniz ki, Belarusda müharibə başlasa, NATO və Rusiya müdaxilə edəcək və bu, nüvə müharibəsi olacaq".

Məsələyə münasibət bildirən politoloq Yeganə Hacıyeva "Şərq"ə açıqlamasında vurğulayıb ki, Lukaşenkonun nüvə müharibəsinə cəlb edilməklə bağlı fikirlərini birmənalı olaraq onun bu mövzuda növbəti spekulyasiyası adlandıra bilərik. Politoloq qeyd edib ki, daha öncələr Lukaşenkonun səsləndirdiyi bu fikirləri Rusiyanın hökumət nümayəndələrindən, xüsusilə Rusiya hökumətinin Avropa Parlamentində və yaxud da AŞ PA-da nümayəndə heyətlərinin rəhbərlərindən dəfələrlə eşitmişik: "Məsələ ondadır ki, istər NATO, istərsə də Rusiya nüvə müharibəsinin onlar üçün nə ilə nəticələnəcəyini yaxşı anlayır. Məhz bu səbəbə görə də onlar heç bir halda belə riskə getməyəcəklər. Onu da qeyd edim ki, müasir dünyada nüvə təhdidlərinin daim olacaq. Bu, heç vaxt da təhdid olunmadan uzağa getməyəcək və həmişə də təhdid formasında səslənəcək. Müasir dünyada nüvə silahının istifadəsi, təhdidlərin reallaşaraq həyata keçməsiylə bağlı səslənən ehtimallarının heç birinə inanmıram. Çünki tarixdə cəmi bir dəfə müharibədə nüvə silahının istifadəsi baş tutub və bunun fəsadlarını istər istifadə edən ABŞ, istərsə silah satan Yaponiya çəkir. İlk dəfə ABŞ Yaponiyaya qarşı nüvə başlıqlı silahlardan istifadə edib. Etiraf etmək lazımdır ki, onun nə təbiətə vurduğu fəsadlar, nə də ki, siyasi fəsadları ABŞ üçün hələ də bitməyib".

Politoloqun sözlərinə görə, Qərb ölkələri Belarusun üzərinə müəyyən sanksiyalar tətbiq edir və bu sanksiyaların hələ də davam edəcəyi gözlənilir: "Ən azından hazırda mesajlar bu istiqamətdə verilib. Lukaşenko belə mövzunun açılmasıyla, qiyabi olaraq bizim üzərimizə gəlməklə, "Rusiyanı qıcıqlandıra bilərsiniz, təhrik edə bilərsiniz" və s. kimi fikirlər səsləndirməyə çalışır. Amma ABŞ, Rusiya və NATO ölkələrinin bir çoxunun da bir-birinə qarşı həll edilməmiş çoxlu sayda problemləri var. Bu gün bu problemlərin həll edilməsi istiqamətində, qarşılıqlı güzəştlər hesab edə biləcəyimiz işartıları izləmirik. Rusiya heç bir halda geri çəkilmək istəmir, əksinə, bütün konfrantasiyalar mövcud olan sahələrdə NATO-nun Avropadakı müttəfiqlərini qıcıqlandıracaq addımlar atır. Qərb ölkələri, NATO ölkələri, NATO-nun Avropadakı tərəfdaşları, Alyansın müttəfiqləri və s. Rusiya ilə müttəfiqlərdə daha çox artan ritorika üzrə danışırlar, nəinki azalan. Amma bu, heç bir halda nüvə başlıqlarının istifadəsi, nüvə silahının istifadəsi ilə nəticələnə bilməz. Onsuz da müasir dünyada dövlətlərə qarşı təsir alətləri kardinal dəyişib. Yeni texnoloji resurslar vasitəsilə ölkələri kənardan izləmək, ölkələrin cəmiyyətlərdəki gündəmini dəyişmək, cəmiyyətlərdə günbəgün süni üsullarla artan aqressivliyi hökumətlərə yönəltmək, danışıqlarını bu və ya digər istiqamətlərdə yönləndirmək mümkündür. Hesab edirəm ki, bu kənar məqsədlərə xidmət edən mövzularda kifayət qədər effektiv mübarizə üsuludur. Yeni dünya düzəni adlandırdığımız reallıqda hərbi məqsədlərə, qeyri-hərbi üsullarla çatmaq kimi alətlər formalaşıb. Buna görə də nüvə silahından istifadəyə sadəcə əsas yoxdur".



# Yeganə hədəfimiz terrorçulardır

## Hulusi Akar: "Terror təşkilatlarında ciddi çöküş yaşanır"

**"İndiyədək öhdəmizə düşən vəzifələri uğurla yerinə yetirdik. Ona görə də hər birinizi təbrik edirəm".**

"Report" xəbər verir ki, bu fikirləri Türkiyənin milli müdafiə naziri Hulusi Akar Ege və Aralıq dənizindəki vəziyyət barədə danışarkən deyib.

"İnşallah, bundan sonra da vəzifəmizi eyni ciddiyyət və səmimiyyətlə, dialoq və koordinasiyalı formada yerinə yetirəcəyik. Suriyada və İraqın şimalında terrorizmlə mübarizə mürəkkəb relyef və çətin hava şəraitinə baxmayaraq, qətiyyətlə davam edir. Bizim yeganə hədəfimiz terrorçulardır. Hazırda terror təşkilatlarında ciddi çöküş yaşanır", - o bildirib.

# Saakaşvilinin vəziyyəti sabit və qənaətbəxşdir

## Keçmiş prezidentin müalicəsi davam etdirilir



**"Son məlumatlara əsasən, Mixeil Saakaşvilinin vəziyyəti sabit və qənaətbəxşdir".**

"Report"un yerli bürosu xəbər verir ki, bunu Gürcüstanın ədliyyə naziri Rati Breqadze "İmedi" telekanalının efirində deyib.

Nazirin sözlərinə görə, keçmiş prezidentin müalicəsi davam etdirilir: "Onun aclıqdan sonra qidalanması bərpa edilir və simptomatik müalicəsi aparılır".

R.Breqadze qeyd edib ki, Ədliyyə Nazirliyi M.Saakaşvilini müalicə edən tibbi heyətlə daimi əlaqə saxlayır.

*Xatırladaq ki, Gürcüstanın üçüncü prezidenti oktyabrın 1-də Tbilisidə saxlanılıb və Rustavidəki həbsxanaya yerləşdirilib. O, noyabrın 8-də Tbilisidəki Qldani türməsinin xəstəxanasında müalicəyə alınıb. Əlli gün aclıq aksiyası keçirən siyasətçi noyabrın 20-də Qoridəki hərbi hospitala köçürülüb. Saakaşvili bundan sonra aclıq aksiyasını dayandırıb.*

# Moskva "B" planını işə salıb

## Paşinyan Rusiyaya itaətkarlıq göstərsə də Qərb sevdasından əl çəkmir

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin görüşəcəyi xəbəri yayıldıqdan sonra Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub.**



Putin və Paşinyan 10 noyabr və 11 yanvar tarixlərində imzalanmış üçtərəfli bəyanatların yerinə yetirilməsi kontekstində regiondakı vəziyyəti müzakirə ediblər.

Üstəgəl, Paşinyan Rusiyanın fəal vasitəçilik səylərinə görə, Kreml sahibinə minnətdarlığını bildirib. Xatırladaq ki, bu, Putinlə Paşinyan arasında həftə ərzində ikinci telefon danışığıdır. İstisna deyil ki, telefon söhbəti Rusiyanın təşəbbüsü ilə baş tutub. Ekspertlərin fikrincə, Putin və Paşinyanın bir-birindən şübhələnməsi üçün əsaslar var. Paşinyan Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşdirilməsi və Zəngəzur dəhlizinin açılması məqsədilə Putinin yanaşmasından, Putin isə Paşinyanın Brüsselin vasitəçiliyi ilə gerçəkləşəcək danışıqlarda ortaya qoyacağı mövqedən narahatdır. Aydın görünür ki, Kreml Bakı ilə İrəvan arasında həyata keçirdiyi təkbaşına vasitəçiliyi rəqibi Brüssellə bölüşmək istəmir. Məlum olduğu kimi Vladimir Putin Nikol Paşinyanla dövlət başçısı İlham Əliyevi Brüsseldən əvvəl Moskvada görüşdürmək istəyirdi. Lakin Paşinyan qeyri-rəsmi kanallarla görüşdən imtina etdiyini Moskvaya bildirdi. Yəni Zəngəzur dəhlizinin açılmasına və sərhədlərin müəyyənləşməsinə hazır olmaması səbəbindən Moskvadakı görüşü təxirə salan Paşinyan Brüsseldə görüşə razılıq verdi.

**Paşinyanın Qərbin görüş təşəbbüsünə "hə" deməsini və Moskvanın mövqeyini "Şərq"ə dəyərləndirən siyasi icmalçı Azər Niftiyev bildirib ki, Kreml son dövrlər "fərqli" xarici siyasət yürüdür.** Analitikə görə, əvvəlki dövrlərdə Kreml postsovet ölkələrinin daxili işlərinə kobud surətdə qarışırdısa, artıq bunu ölçülü-biçili formada həyata keçirir: "Moskva keçmiş ittifaq dövlətlərinin rəhbərləri tərəfindən dozalı tənqidi "anlayışla" qarşılayır. Özünün diktəsi ilə baş tutacaq senariləri əvvəlcə Qərbin masasına çıxarır, yekunda isə "xilaskar" obrazında ortaya çıxır. Biz bunu Qarabağ və digər münaqişələrə münasibətdə görmüşük. Xatırlayırsınızsa, 10 noyabr üçtərəfli bəyanatından öncə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ABŞ-da dövlət katibinin iştirakı ilə atəşkəs bəyanatı imzaladılar. Lakin ömrü bir gün belə sürmədi. Nəticədə Ermənistan Moskvanın vasitəçiliyi ilə kaputilyasiya aktına imza atdı".

**A.Niftiyevin sözlərinə görə, Paşinyanın Rusiyaya minnətdarlıq etməsi özünə qarşı yönələn təzyiqləri azaltmaq məqsədi daşıyır:** "Rusiya postmüharibə dövründə Paşinyanı yola salmaq və özünə yaxın "Qarabağ klanı"nı yenidən iqtidara gətirmək niyyətindəydir. Kremlin bu istəyi reallığa çevrilmədiyinə görə Moskva "B" planına əl atdı. Buna əsas səbəb isə Paşinyanın Qərbə yönəlik siyasət yürütməsi ilə bağlıdır. Paşinyan anlayır ki, Rusiya ilə müəyyən məsələlərdə anlaşmalıdır. Əks halda bu gün olmasa da, zamanla onun gedişi qaçılmaz olacaq. Bu səbəbdən müəyyən itaətkarlıq nümunəsi ortaya qoyur. Hansı ki, Rusiyanın rəsmi dairələri bu "nəzakətli davranışı" həmişə seviblər. Lakin həm Rusiya, həm də Paşinyan bilirlər ki, onlar doğma deyillər".

**Ekspert düşünür ki, regionda Qərb və Rusiya ilə yanaşı, Türkiyə faktoru da mövcuddur:** "Türkiyə dünyanın əsas diplomatik oyunçularından biridir. Regionda söz sahibidir və onun Qarabağ münaqişəsi ilə bağlı qəti mövqeyi ortadadır. Bu mövqe isə Azərbaycanı dəstəkləməkdən ibarətdir. Bu səbəbdən həm Rusiya, həm də Qərb münaqişəyə münasibətdə Türkiyə amilini unutmur. Bütün hallarda münaqişə hərbi müstəvidə başa çatıb. Ermənistanın bütün təxribat cəhdləri uğursuzluğa məhkumdur. Son təxribatlar zamanı bunu aydın gördük. Rusiya regional münaqişələrdən hər zaman təzyiq rıçağı kimi istifadə edib və bundan sonra da belə olacaq".

**İsmayıl Qocayev**



## Aşqabadda görüş gözlənilir

### İbrahim Rəisi ilə İlham Əliyev ilk dəfə təmas quracaqlar

**İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə noyabrın 22-də mətbuat konfransı keçirib.**

S.Xətibzadə konfransda bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti İbrahim Rəisi Türkmənistanın paytaxtı Aşqabadda keçirilməsi planlaşdırılan İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə görüşü çərçivəsində görüşə bilər.

O, Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin İrana səfərinin mühüm hadisə olduğunu və konstruktiv keçdiyini də vurğulayıb.

Qeyd edək ki, Ş.Mustafayev noyabrın 21-də İranda səfərdə olub, bu ölkənin Xarici işlər naziri Hüseyn Əmirabullahianla görüşüb.

**İran və Azərbaycan liderlərinin görüş ehtimalını "Şərq"ə şərh edən politoloq Sədrəddin Soltan açıqlamasında bildirib ki, prezidentlərin görüşləri həmişə tərəflər üçün xoş hadisə olub:** "Bu, əməkdaşlıqda yeni imkanlar qazandırır. İranın Azərbaycanla bağlı iddialarından sonra belə görüşün keçirilməsi yaxşı addım sayıla bilər. Dünən Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin Tehrana səfəri, İranla iqtisadi əlaqələrə dair bir sıra məsələləri müzakirə etməsi həmin məsələlərin prezidentlər tərəfindən dəyərləndirilməsinə imkan verir. Aşqabad sammitində yeni sənədin imzalanacağını güman etmirəm. Aşqabad toplantısında gələcəkdə tərəflər arasında görüşün keçirilməsi ilə bağlı razılıq əldə edilə bilər. İbrahim Rəisi İranın yeni prezidentidir. Azərbaycan prezidenti ilə baş tuta biləcək görüş tərəflər arasında ilk görüş olacaq. Dövlət rəhbərləri tanış olacaqlar, müəyyən məsələlərə münasibətlərini bildirəcəklər".

**Aygün Tahir**

# Rusiyanın Ukraynaya qarşı qəzəbi sönməyib

### "Hazırda Moskva Kiyevə yenidən dərs vermək planları üzərində işləyir deyə bilərik"



**Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanov "Military Times" nəşrinə müsahibə verib. O, sərhədə 92 mindən çox hərbçi cəmləşdirən Rusiyanın 2022-ci ilin yanvar ayının sonlarında və fevral ayının əvvəlində Ukraynaya hücum edə biləcəyini deyib. K.Budanovun sözlərinə görə, artilleriya və zirehli texnika ilə hücum Odessa və Mariupola desant basqısı ilə davam edəcək:**

"Belarus sərhədindən də kiçik qüvvə ilə hücum olacaq. Bu hücum 14 minə yaxın ukraynalının həyatına son qoymuş 2014-cü ildəki münaqişə ilə müqayisədə daha dağıdıcı olacaq".

Baş Kəşfiyyat İdarəsinin rəisi hücumun Ukraynada sabitliyi pozmaq və ölkənin mübarizə qabiliyyətini zəiflətmək üçün psixoloji əməliyyatlarla müşahidə olunacağını bildirib. K.Budanov ABŞ və Ukrayna kəşfiyyatlarının Rusiyanın hücuma keçəcəyi müddətlə bağlı proqnozlarının oxşar olduğunu qeyd edib.

**İki ölkə arasındakı gərginliyin artmasını "Şərq"ə şərh edən analitik Aqşin Kərimov qeyd edib ki, Ukrayna sərhədlərinə 90 minlik ordu kontingenti, müxtəlif çaplı silahlar, zirehli texnikalar cəmləşdirən Rusiyanın planlarını təxmin etmək bir qədər çətindir:** "Çünki bundan əvvəl də Rusiya analoji addım atmışdı və daha sonra qoşunlarını geri çəkmişdi. O vaxt Moskva ilə Qərb arasında qısa müddətlik də olsa, razılaşma əldə edilmişdi. Ancaq yaxınlarda Ukraynanın Türkiyə istehsalı olan "Bayraktar"lardan istifadə edərək separatçılara zərbələr endirməsi Kremlin soyumuş qəzəblərini alovlandırdı. Hazırda Moskva Kiyevə yenidən dərs vermək planları üzərində işləyir deyə bilərik".

*Analitik hesab edir ki, Rusiyanın Ukrayna ilə sərhədə qoşun cəmləməsi gedişatın perspektivinə dair iki versiyanı önə çıxarır:* "Birinci versiya budur ki, Rusiya NATO-nun əsəblərini test etmək və Qərbi zəif tərəf kimi göstərmək istəyir. Bununla da Ukraynaya mesaj verir ki, ən çətin zamanında sənin arxanda Qərb dayanmayacaq və buna görə də saat əqrəblərini Moskva ilə tutuşdurmalısan. Bu versiyadan gələcəyimiz nəticə odur ki, Kreml hibrid müharibə ilə Kiyevi şantaj edir. İkinci versiya isə müharibə senarisidir. Məncə, müharibə versiyası Kremlin "B" planına daxildir. Yəni "A" planını işə salmaq üçün "B" planının müqəddiməsi təqdim edilir. Hələlik isə rəsmi açıqlamalarda Rusiyanın müharibəyə hazırlaşdığı bildirilir, Kiyevin də, Qərbin də ortaq məxrəci budur: Rusiya yanvar-fevral aylarında müharibəyə başlayacaq".

*Aqşin Kərimov Rusiyanın Ukrayna ərazisindən keçərək Avropaya çıxan qazını əlində "kozır" tuta biləcəyini diqqətə çatdırıb.* Analitik sonda Rusiyanın qaz təchizatını dayandırdığı halda Avropanın böyük qismində qaz problemi yaranacağını və bu zaman onların Kiyevə dəstəyinin yalnız sözdə olacağını əlavə edib.

**Günəş Mərd**



# Rus jurnalist ermənilərə yol göstərir

### O, təklif edir ki, əri ölmüş qadınlar rus sülhməramlılarla evlənsin

**Rusiyalı jurnalist Valeriya Olyunina rus sülhməramlılarına Qarabağda yaşayan və müharibədə əri ölmüş erməni qadınlarla ailə qurmağı təklif edib. O, bu haqda "təklif"lərini özünün "Teleqram" səhifəsində paylaşıb.**

Xanım jurnalist belə olacağı təqdirdə rus sülhməramlılarının 4 il sonra da Qarabağda qalmaları üçün "səbəb" olacağını qeyd edib.

> ***"Onlar az qalır ki, erməniləri kürəklərində gəzdirsinlər. Bunun adı sülhməramlılıq deyil, pisməramlılıqdır! Bu cür özfəaliyyətdən sonra sülhməramlıların mandatının uzadılmasından söhbət gedə bilməz"***

Olyuninaya görə, əgər rus sülhməramlıları əri müharibədə ölmüş erməni qadınlarla ailə qursalar, Qarabağ üçün Rusiya uğrunda mübarizə aparırmış kimi savaşa biləcəklər: "Konstantin Zatulinin "Sputnik-Ermənistana" müsahibəsini maraqla dinlədim. Mənə aydındır ki, indi "artsax"da ərləri öldürülmüş çoxlu gənc qadın var. Hesab edirəm ki, rus əsgərləri onlarla evlənə, ailə qura, uşaq dünyaya gətirə və bu torpaq üçün vətənləri kimi vuruşa bilərlər. Beləliklə onların burada dörd ildən çox qalmasına səbəb yaranar. Bu həm də imperiyanın yaranmasının təməli olar. Sülhməramlılıq gözəl missiyadır, lakin kifayət deyil".

**Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə "Şərq"ə açıqlamasında deyib ki, rus sülhməramlılarının onlara verilmiş mandatdan kənara çıxması haqlı narahatlıq doğurur. JAM sədrinin sözlərinə görə, Azərbaycan cəmiyyəti artıq onlara sülhməramlı deyil, erməniməramlı kimi yanaşır:** "Qarabağda susuz qalan erməniləri su ilə təmin etməklə, şarlatan din xadimlərini monastırlara aparmaqla, Azərbaycan torpaqlarında ermənilərə ev tikməklə onlar erməniməramlı olduqlarını sübut ediblər. Sülhməramlı tərəflər arasında ayrıseçkilik qoymamalı, həm ermənilərə, həm də azərbaycanlılara münasibətdə tərəfsizlik nümayiş etdirməlidir. Təəssüf ki, Qarabağdakı sülhməramlılar bunu bacarmadılar. Onlar az qalır ki, erməniləri kürəklərində gəzdirsinlər. Bunun adı sülhməramlılıq deyil, pisməramlılıqdır! Bu cür özfəaliyyətdən sonra sülhməramlıların mandatının uzadılmasından söhbət gedə bilməz. Onlar Azərbaycanda müvəqqəti olduqlarını anlamalı və ağıllarını başlarına yığmalıdır! Valeriya Olyuninanın təklifinə gəlincə, əslində, bu jurnalist erməni xalqını təhqir edib. Sülhməramlıların Qarabağdakı erməni qız və qadınlarına sataşdıqlarına, hətta onlara məşuqə kimi yanaşdıqlarına dair çoxsaylı məlumatlar var. Rus jurnalist dolayısı ilə bunu təsdiq etmiş oldu. Ruslar uzun illərdi ki, ermənilərin namusuna sataşır. Amma ermənilər bunu görməzlikdən gəlir, özlərini karlığa, korluğa, lallığa vururlar. Qarabağın bütün ərazilərində Azərbaycanın tam suverenliyi təmin olunandan sonra bu bölgədə yaşayan ermənilərin ruslar tərəfindən alçaldılmasına son qoyulacaq".

**İsmayıl Qocayev**

# Elektron məhkəmə sistemi zamanın tələbidir

### Ancaq vətəndaşlar bu sistemlə tanış olana qədər yazılı müraciət qaydası qüvvədə saxlanmalıdır



**Hazırda ölkə ərazisində fəaliyyət göstərən 117 məhkəmənin 77-də, başqa sözlə, üçdə ikisində elektron məhkəmə sistemi tətbiq olunur və gələn ildən bütün məhkəmələrdə elektron məhkəmə sisteminin tətbiqi nəzərdə tutulur. Bu fikirlər Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri Fikrət Məmmədovun AZƏRTAC-dakı məqaləsində yer alıb.**

O qeyd edib ki, qanunvericiliyə edilmiş, o cümlədən ötən ay qüvvəyə minmiş dəyişikliklər məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, o cümlədən sürüdürməçiliyin aradan qaldırılmasına, işlərə çevik və vaxtında baxılmasına şərait yaradıb. "Həmçinin bu dəyişikliklər məhkəmələr tərəfindən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini daha da genişləndirib. Məhkəmə icraatının video-konfrans əlaqə sistemi vasitəsilə həyata keçirilməsi imkanının yaradılması şəffaflığın əlavə təminatı olmaqla, pandemiya şəraitində xüsusi əhəmiyyət kəsb edib", - deyə o bildirib. F.Məmmədov həmçinin qeyd edib ki, məhkəmə rüsumlarının dərəcələrinin diferensial şəkildə müəyyən edilməsi ilə əlaqədar rüsumların dəqiq və avtomatik hesablanmasına imkan verən onlayn kalkulyator, eləcə də xüsusi metodiki vəsait hazırlanaraq məhkəmələrin vahid portalında, Ədliyyə Nazirliyi və Ali Məhkəmənin elektron resurslarında yerləşdirilib. "Məhkəmə fəaliyyətində şəffaflığın təmini məqsədilə bütün məhkəmə qərarlarının elektron dərc olunması təmin edilir və bu zaman şəxsi həyat sirrinin qorunması üçün xüsusi proqramla onlar anonimləşdirilir. Həmin qərarlar üzrə elektron axtarış sisteminin yaradılması hər kəsin məhkəmə təcrübəsi barədə məlumatlılığını artırır və sistem xarakterli nöqsanların müəyyənləşdirilməsində mühüm rol oynayır. Eyni zamanda, şəffaflığın əlavə təminatı kimi işlərin hakimlər arasında bölüşdürülməsi elektron sistem üzərindən həyata keçirilir və onun daimi monitorinqi aparılır",- deyə o vurğulayıb.

**Elektron məhkəmə sisteminin tətbiqi hüquq müdafiəçiləri, vəkillərə, məhkəmələrə müraciət edən vətəndaşlara hansı üstünlüklər verir? Elektron məhkəmə sistemi barədə "Şərq"ə danışan vəkil Adəm Məmmədov qeyd etdi ki, elektronlaşma zamanın tələbidir:**

- Texnologiyanın inkişafı hər sahədə özünü göstərir. Elektron məhkəmə sistemi də bunlardan biridir. Bunu zaman tələb edir. Xüsusilə pandemiya şəraiti elektronlaşmanın zəruriliyini daha da artırdı. Üstünlük bundadır ki, vətəndaş məhkəmə binasına gəlmədən, elektron sistemə daxil olub məlumat əldə edə biləcək. Məhkəmə proseslərinin onlayn izlənmə imkanı əldə ediləcək. Məsələn, biz vəkillər məhkəmə prosesinə qatılmadan prosesi izləyə bilirik. Üstünlükləri var, amma problem yaradan tərəfləri də var. Hesab edirəm ki, elektron məhkəmə sistemi tətbiqi yazılı müraciət qaydası və ya əyani şəkildə məhkəməyə müraciət, məlumatların əldə edilməsini tamamilə sıradan çıxarmamalıdır. Yeni qaydalara, elektron sistemə uyğunlaşmaq üçün vətəndaşlara zaman tanınmalıdır. Yenilik tətbiq edilməzdən öncə maarifləndirmə işi aparılmalıdır. Hamının düşüncəsi eyni deyil. Vətəndaş elektron məhkəmə sistemi ilə, ondan istifadə qaydası ilə tanış olmaya bilər. Yenilik, müasirlik yaxşıdır, amma keçid dövrü mütləq olmalıdır. Elektron məhkəmə sistemi ilə yanaşı yazılı müraciət qaydası bir müddət paralel aparılmalıdır. Vətəndaşlar bu sistemlə tanış olanadək, ondan istifadəni öyrənənədək.

**A.Məmmədov qeyd etdi ki, yeniliklərin düzgün tətbiq edilməməsi bəzən problemlər yaradır:**

- Bunun səbəblərindən biri odur ki, nazirin qarşısında kimsə başqa bir təklif irəli sürməyə cürət etmir. Bir nəfər qalxıb demir ki, əvvəlcə vətəndaşları maarifləndirək, sonra yeni sistemi tətbiq edək. Çünki vətəndaşlar üçün bu sistemə uyğunlaşmaq çətin olacaq.

**Məlahət Rzayeva**



# "Şərq qapısı" qəzetinin 100 illiyinə həsr olunmuş toplantı keçirilib

**Dünən Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının "Şərq qapısı" qəzetinin 100 illiyinə həsr olunmuş toplantı keçirilib.**

Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, 1921-ci ildə ilk sayı çapdan çıxmış "Şərq qapısı" qəzeti yalnız Naxçıvan Muxtar Respublikasının deyil, bütövlükdə Azərbaycanın ən uzunömürlü kütləvi informasiya vasitələrindəndir. Mətbuat orqanı ölkəmizin ədəbi-bədii mühitinin, ictimai rəyinin formalaşmasında, milli şüurun və təfəkkürün aşılanmasında müstəsna tarixi xidmətlərilə seçilib. Klassik mətbuatımızın ənənələrinə sadiq qalaraq oturuşmuş jurnalistika məktəbinə çevrilib. "Ötən əsrin 70-ci illərindən başlayaraq qəzet Naxçıvanın, ümumən respublikanın aparıcı fikir, düşüncə katalizatoru kimi populyarlaşmağa başlayıb. Bu, həmin dövrdə hakimiyyətə ulu öndər Heydər Əliyevin gəlişi ilə bağlı idi. Mətbuatın ictimai roluna hər zaman böyük önəm vermiş ümummilli lider "Şərq qapı"sını fərqləndirirdi. Bu, həm nəşrin tarixinə böyük dəyər idi, həm mətbuatın ictimai missiyasına həssas yanaşmanın, həm də idarəçilikdə mətbuat amilinə önəm verilməsinin bariz göstəricisiydi" - deyən Ə.Amaşov "Şərq qapısı"nın Azərbaycan xalqının milli istiqlal hərəkatına töhfəsindən də söz açıb. O, diqqəti nəşrin 1990-1993-cü illərdəki fəaliyyətinə yönəldərək vurğulayıb ki, həmin zaman kəsiyində qəzet Heydər Əliyevin muxtar respublikada gördüyü işləri işıqlandırıb, məhrumiyyətlərə baxmayaraq cəsarət nümayiş etdirib. Bu cəhət onu eyni zamanda ideoloji mərkəz kimi tanıdıb.

Ə.Amaşov çıxışında "Şərq qapısı" qəzetinin müstəqillik illərindəki fəaliyyətinə də toxunub. O bildirib ki, hələ Sovetlər Birliyi dönəmində nəşrin 50 illik yubileyinin keçirilməsi təşəbbüsü ilə çıxış etmiş ulu öndər onun 75 illik yubileyinin yüksək səviyyədə təşkilinə də həssas yanaşıb. Sonrakı illərdə nəşrin 80, 85, 90 və 95 illik yubiley tədbirlərinin düzənlənməsi xoş ənənəyə çevrilib. "Bu günün "Şərq qapısı" müasir texnologiyalarla təchiz edilmiş, özünün internet resursuna, mətbəəsinə, ofisinə malik jurnalistika məktəbidir. Qəzetdə başlıca meyar peşəkarlıqdır. Əlbəttə, peşəkarlıq vətənpərvərliklə çulğalaşıb ki, bu da tarixi ənənələrdən qaynaqlanmaqdadır. "Şərq qapısı"nın 100 yaşının təntənəli şəkildə qeyd edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisin sədri hörmətli Vasif müəllim Talıbov müvafiq sərəncam imzalayıb. Biz qərara gəldik ki, Azərbaycan Mətbuat Şurasında ölkənin aparıcı media vasitələrinin rəhbərlərinin iştirakı ilə də qəzetin yubileyi ilə bağlı toplantı keçirək. Eyni zamanda bu qərara gəldik ki, "Şərq qapısı" qəzetini Şuranın xüsusi diplomu ilə təltif edək", - deyən MŞ sədri diplomu Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərova təqdim edib.

Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov çıxışında bildirib ki, milli mətbuatımızın inkişafına böyük töhfələr vermiş, muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında müstəsna rol oynayan qəzet Naxçıvanın 100 illik tarixinin yazılı salnaməsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında "Şərq qapısı" qəzetini məktəb adlandırıb. O vurğulayıb ki, bu məktəb özündə yalnız jurnalistikamızın ənənələrini birləşdirmir, onun yüz illik tarixi nəşri ədəbiyyat, publisistika, elm məktəbi kimi də təqdim etmək üçün geniş məzmunlu əsaslar yaradır. Akademikin sözlərinə görə, Naxçıvanda elə bir yaradıcı şəxs tapılmaz ki, onun həyatında yubilyar nəşrin bu və ya digər formada rolu olmasın. "Şərq qapısı"nın inkişafı yalnız bir qəzetin inkişafı deyil, bütövlükdə Azərbaycan milli mətbuatının inkişaf tarixidir. "Şərq qapısı" özü bir tarixdir, tarixin parçasıdır. O, Naxçıvanın ensiklopediyasını yaratmış mətbuat orqanıdır, salnaməsidir. Onun səhifələrində jurnalistikanın bütün janrları təmsil olunub. Publisistik dəst-xətt özünü ən mükəmməl surətdə göstərib. Qəzet həm də bir elm mərkəzidir. Azərbaycan, Naxçıvan elmi ilə bağlı fundamental məqalələr, elmi yeniliklər məhz onun səhifələrindən oxuculara çatıb. Bu mənada qəzetin Azərbaycan elminin inkişafında da müstəsna rolu var.

Çıxış edənlərdən MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, Şuranın İdarə Heyətinin üzvləri - "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Ədalət" qəzetinin təsisçisi, Milli Məclisin deputatı Aqil Abbas, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, həmçinin "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, "Yeni Azərbaycan" qəzetinin baş redaktor müavini Nəzirə Nurullayeva, "525-ci qəzet"in redaktoru Seyfəddin Hüseynli, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, Yeni Azərbaycan Partiyasının Binəqədi Rayon Təşkilatının sədri Vüsal İsmayılov və başqaları "Şərq qapısı" qəzetinin müxtəlif dövrlərdəki fəaliyyətindən bəhs ediblər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi**

# Regionlarda yeni iş yerləri yaradılır

## Sənaye zonalarının genişləndirilməsi Azərbaycanın ən prioritet istiqamətlərindən biridir

**Aynurə Pənahqızı**

**Sahibkarlığın inkişafı ölkəmizdə əsas prioritet məsələlərdən biridir. Qeyd edək ki, bugünədək sahibkarlar tərəfindən sənaye zonalarına 6,2 mlrd. manatdan çox investisiya yatırılıb və 9500-dək iş yeri yaradılıb. İndiyədək sənaye zonalarında 89 sahibkarlıq subyektinə isə rezidentlik statusu verilib və bunlardan artıq 55-i fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bugünədək sənaye zonalarına 6,2 mlrd. manatdan çox investisiya yatırılıb və 9500-dək iş yeri yaradılıb.**

Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 mln. manat investisiyanın yatırılması və 2 minə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Bu barədə İqtisadiyyat Nazirliyindən məlumat verilib. Sənaye zonaları üzrə indiyədək ümumilikdə 5 mlrd. manatlıq məhsul istehsal edilib ki, bunun 1,4 mlrd. manatı (təqribən 28 faizi) ixrac olunub. Sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. Statistik göstəricilərə əsasən, 2020-ci ilin 9 ayında sənaye zonalarında 977 mln. manatlıq məhsul istehsal edilmişdisə, 2021-ci ilin 9 ayında 56,7 faiz çox (1,5 mlrd. manatlıq) məhsul istehsal olunub. İxrac isə 2020-ci ilin analoji dövrü (269 mln. manat) ilə müqayisədə 102,6 faiz (2 dəfə) artaraq 545 mln. manat təşkil edib. 2021-ci ilin 9 ayında 1,5 mlrd. manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,2 faiz, qeyri-neft sənaye məhsullarının ixracında 25,9 faiz (545 mln. manat) olub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 30-dan çox ölkəsinə ixrac edilib. Qeyd edək ki, sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Sənaye zonaları ölkənin qeyri-neft sektorunun, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafında və əhalinin məşğulluq səviyyəsinin təmin edilməsində mühüm rol oynayır.

**Mövzuya münasibət bildirən Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlamasında qeyd edib ki, sənaye zonaları, eləcə də məhəllələri sənayeləşmə baxımından çox vacibdir. Millət vəkili diqqətə çatdırıb ki, bu istiqamətdə sənayeləşmənin genişləndirilməsi Azərbaycan üçün prioritetdir:** "Sənaye zonalarında, eləcə də parklarında vergi güzəştlərinin tətbiq olunması, dövlət tərəfindən infrastrukturun formalaşması imkan verir ki, daha çox sərmayənin bu istiqamətə cəlb edilməsi mümkün olsun. Eyni zamanda, bu həm də yeni iş yerlərinin yaradılması baxımından çox vacibdir".



**Deputat vurğulayıb ki, əslində son dövrlər bölgələrdə yaradılan yeni iş yerlərində sənaye zonalarının və parklarının xüsusi payı var:** "Bu baxımdan təbii ki, yeni istiqamətdə fəaliyyətlərin genişləndirilməsi bir tərəfdən Azərbaycanda istehsal edilən sənaye məhsullarının payını və həcmini artırıb. Digər tərəfdən də bu imkan verir ki, daha çox iş yerləri və ixtisaslı kadrların işlə təmin olunmasına nail olmaq mümkün olsun. Sənaye məhəllələrində fəaliyyət göstərən sahibkarlar genişmiqyaslı yeni güzəştlərdən istifadə etmək imkanına malikdirlər. Bu, bir tərəfdən həmin məhəllələrə yerli investisiyanın cəlb edilməsinə imkan verir, digər tərəfdən sahibkarlara dövlət dəstəyindən daha geniş faydalana bilmələrinə şərait yaradır. O baxımdan bu sənayeləşmə siyasətinin əsas elementlərindən biri olmaqla, regionlarda yeni iş yerlərinin yaradılmasına və məhsul istehsalının genişləndirilməsinə xidmət edir. Sənaye məhəllələrində fəaliyyət göstərən sahibkarlar dövlət dəstəyi ilə yeni iş yerlərinin yaradılmasını həyata keçirirlər. Bu, yerli istehsalın və ixrac imkanlarının genişləndirilməsinə xidmət edir. O baxımdan həyata keçirilən siyasət həm məşğulluğun təmin olunmasına, digər tərəfdən də Azərbaycanın istehsal və ixrac imkanlarının artırılmasına gətirib çıxarır".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Hər saniyədə qəzalar baş verir

## Sükan arxasında mobil telefondan istifadə bütün dünyanın dərdidir



**"Bakılı oğlanlar" KVN komandasının məşhur səhnəciyi vardı; Cabir İmanov taksi sürücüsü obrazında. "Sürücü" şəhərin hər küçəsinə, hər tininə bələd köhnə "taksişnik" idi. Beləlri indi çox azdır. Həm də şəhəri tanımağa, deyirlər, ehtiyac da yoxdur. Çünki naviqator kimi müasir üsüllar var.**

Hərçənd, naviqator da bir çox hallarda yolu göstərə bilmir. Ünvanlar bəzən sistemə daxil edilmir, sürücü də ünvanı axtara-axtara qalır. Mövzumuz naviqatorların pis və ya yaxşı işləməsi deyil. Məsələ, naviqatora qoşulmuş sürücünün bir gözünün yolda, bir gözünün telefonda olması və belə vəziyyətdə qəza ehtimalının da artmasıdır. Təkcə, naviqatordurmu sürücülərin diqqətini yayındıran? Əlbəttə, yox. Sərnişin nəqliyyatında avtobus sürücülərinin sükan arxasında mobil telefonla danışması da adi haldır, şəxsi avtomobil sahiblərinin də. Bu da var ki, sürücülər guya ki, "haqqın yolunu" tapıb telefonu maşının "şiti"nə bərkidir, bununla da cərimələrdən yayınmağa çalışırlar. Amma qəzalardan da yayına bilirlərmi? Söyləmək çətindir. Yol-nəqliyyat qəzalarının baş verməsində sürücülərin sükan arxasında mobil telefonla danışmağının çəkisi böyükdür.

Yeri gəlmişkən, Böyük Britaniyanın Nəqliyyat Departamenti sükan arxasında mobil telefonlardan istifadəyə görə sürücülər barəsində daha sərt tədbirlərin görüləcəyini açıqlayıb. Britaniyada sükan arxasında mesaj yazmaq və ya telefonla zəng etmək artıq qanun pozuntusu kimi qiymətləndirilsə də, 2022-ci ildən qüvvəyə minəcək qaydalara görə, sürücülərə sükan arxasında foto və ya video çəkmək, pleylistləri vərəqləmək və ya oyun oynamaq üçün mobil telefonlardan istifadə etmək qadağan ediləcək. Göstərilən tələblər hətta avtomobil işıqforda və ya tıxacda dayanarkən qüvvədə qalacaq. Qanunu pozanlar 200 funt sterlinq məbləğində cərimələnəcək. Daha sərt qaydalar ictimai məsləhətləşmələrin nəticəsində qəbul olunub. Belə ki, respondentlərin 81 faizi qaydaların sərtləşdirilməsini dəstəkləyib.

***"Təhlükələri minimuma endirmək üçün sükan arxasında, istər məsafədən, istərsə də əldə tutmaqla telefondan istifadə edilməməsi məsləhətdir"***

**Nəqliyyat problemləri üzrə ekspert Əziz Talıbov "Şərq"ə açıqlamasında bildirdi ki, sükan arxasında mobil telefondan istifadənin qadağan olunması Azərbaycan İnzibati Xətalar Məcəlləsində, həmçinin "Yol Hərəkəti haqqında" qanunda da əksini tapıb:**

- Avtomobil hərəkətdə olarkən telefondan istifadəyə görə, 50 manat cərimə nəzərdə tutulur. Hərəkət zamanı mobil telefondan istifadə qadağandır. Şübhəsiz ki, belə bir cəza yol-nəqliyyat qəzalarının qarşısının alınması məqsədi daşıyır. Çünki hərəkət zamanı mobil telefondan istifadə sürücünün diqqətini yayındırır. Amma burada diqqət edilməli məqam da var. Mobil telefondan istifadə tamamilə qadağan deyil. Qanunvericilikdə qeyd olunur ki, sürücü hər iki əli sükanda olmaq şərtilə telefondan istifadə edə bilər. Sürücülər mobil telefonu avtomobilin müəyyən hissəsinə bərkidir, məsafəli, kənardan gələn səsə cavab verir, danışır. Yəni telefonu məhz əldə tutaraq istifadə etmək qadağandır. Telefon əldə deyilsə, icazə var.

**Ə.Talıbov qeyd etdi ki, sürücülər də müxtəlifdir. Eləsi var, diqqətsizdir, kənar müdaxilə, nəinki telefon, salonda əyləşmiş sərnişin də onun fikrini yayında bilir, hərəkət zamanı qəzalardan yayınmaq üçün manevr etmək qabiliyyəti zəifdir.** Amma elə sürücü də var ki, situasiyadan çıxmağı bacarır, ətrafda baş verənlər, kimləsə telefon vasitəsilə danışması onun diqqətini yayındırmır. Sürücü özünə bələd olmalı və əgər diqqəti yayınan biridirsə, sükan arxasında yalnız hərəkət və idarəetmə barədə düşünməli, diqqətini buna yönəltməlidir. Bununla belə, Ə.Talıbov bildirdi ki, mobil telefondan istifadənin qəzalara səbəb olduğu elmi cəhətdən də təsdiqini tapıb. Odur ki, təhlükələri minimuma endirmək üçün sükan arxasında, istər məsafədən, istərsə də əldə tutmaqla telefondan istifadə edilməməsi məsləhətdir. Vacib məsələdirsə, avtomobili mütləq kənara çəkib, sonra arxayın şəkildə danışmaq lazımdır.

**Məlahət Rzayeva**

# Tarixçi təklifi dəstəklədi

## Metro stansiyalarına "Şərqi Zəngəzur" və "Qərbi Zəngəzur" adları verilsin

**"Yeni tikilən metro stansiyalarından birinə "Şərqi Zəngəzur", o birinə isə "Qərbi Zəngəzur" adı verilməlidir".**

Bu barədə Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov öz feysbuk hesabında təkliflə çıxış edib. Onun sözlərinə görə, "Şərqi Zəngəzur" stansiyasında elan verilir ki, növbəti dayanacaq "Qərbi Zəngəzur": "Yaddaşlarımızda birdəfəlik möhkəmləndirilməlidir və hər kəs bilməlidir ki, əvvəl-axır belə də olacaq".

**Təklifi "Şərq"ə dəyərləndirən tarixçi-alim Boran Əzizli metrostansiyalara qədim torpaqlarımızın adlarının verilməsini doğru addım hesab edir:** "Ümumiyyətlə, işğal altında olan, xüsusilə başqaları tərəfindən özününküləşdirilməyə cəhd edilən toponimlərin yenidən xalqın diqqətinə çatdırılması, yaddaşlarında təzələnməsi çox əhəmiyyətlidir. Metrostansiyalar da bu mövzuda xüsusi yer tutur. Çünki metrostansiyalardan təkcə Azərbaycan vətəndaşları deyil, ölkəyə qonaq gələnlər də istifadə edirlər. Bu təklifi dəstəkləyirəm".

**Sücayət Mehti**







# Paşinyan normal adam deyil, sadistdir

## O, həm başqasına, həm də özünə verilən əziyyətdən zövq alır

**Ermənistanın Baş naziri Nikol Paşinyan "korrupsiyaya qarşı mübarizə" adı altında siyasi rəqibləri ilə haqq-hesab aparır. Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Korrupsiyaya Qarşı Mübarizə Komitəsinə çağırılıb. O, təqsirləndirilən şəxs qismində dindirilib.**

Onun vəkili Amram Makinyanın sözlərinə görə, Sarkisyan prezident olduğu dövrdə sahibkar Silva Ambartsumyandan rüşvət alınması işi ilə bağlı ifadə verib. Vəkili qeyd edib ki, Sarkisyan Silva Ambartsumyanın ifadəsinə əsaslanaraq, artıq iki il əvvəl şahid qismində dindirilib.

Ambartsumyanın ifadəsi əsasında keçmiş prezident Robert Koçaryana qarşı da ittiham irəli sürülüb.

2021-ci ilin aprelində İrəvan məhkəməsi Koçaryana, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyana, Baş Qərargahın keçmiş rəisinə, KTMT-nin keçmiş baş katibi Yuri Xaçaturova, Ermənistan Prezident Aparatının keçmiş rəhbərinə, Baş nazirin keçmiş müavini Armen Gevorkyana qarşı "konstitusiya quruluşunu devirmə" maddəsi ilə cinayət təqibinə xitam verib.

Eyni zamanda, məhkəmə Koçaryan və Gevorkyanın ittiham olunduğu "rüşvət alma" maddəsi ilə cinayət işinə baxmağı davam etdirir. Sahibkar Silva Ambartsumyan Koçaryanı 2008-ci ildə 3 milyon dollar məbləğində rüşvət almaqda ittiham edib.

**Ermənistandakı korrupsiyaya qarşı mübarizə tədbirləri ilə bağlı "Şərq"ə danışan Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib ki, Paşinyan jurnalist kimi fəaliyyət göstərdiyi dövrdə arzulamadığı adamlar haqqında həmişə fikir bildirib:** "Dəfələrlə onları həbsxanaya atmaq, işgəncələr vermək lazım olduğunu söyləyib. N.Paşinyan elə bilir korrupsionerləri həbsə atanda rüşvətin qarşısını almağı bacaracaq. Onun ən yaxşı edə bildiyi iş budur, əlindən başqa nəsə gəlmir. O, sadist, mazoxist biridir. Həm özgəsinə, həm də özünə verilən əziyyətdən zövq alır. Erməni xalqını incidir. Erməni xalqı Paşinyanı ona görə seçdi ki, o, Qarabağ məsələsində Ermənistan ictimai siyasi həyatında olanlardan fərqli fikir söyləyir. Vaxtilə Qarabağ məsələsinə görə, Koçaryanı, Sarkisyanı ələ salırdı. Jurnalist olduğu zaman deyirdi, Qarabağ Azərbaycan ərazisidir. Erməni xalqı da bunu görürdü deyə, onu hakimiyyətə gətirdi".

**M.Əhmədoğlunun sözlərinə görə, N.Paşinyan indi mövqeyini dəyişib:** "Müharibədə məğlub oldu, kapitulyasiya aktını imzaladı. Daha sonra üçtərəfli bəyannamənin şərtlərini yerinə yetirəcəyinə vəd verdi. Lakin şərtləri reallaşdırmaqdan imtina edir, Moskvanı aldadır. Rusiya adından yalan bəyanatlar verir. 16 noyabrda döyüş dayanan kimi Rusiya Müdafiə naziri Sergey Şoyqunun adından bəyanat verdi. Amma sonradan buna əməl etmədi. Nə qədər Paşinyan hakimiyyətdədirsə, bir o qədər siyasi şəxsləri həbsxanaya atacaq. Koçaryanın blokundan olan Anna Mkrtçyan müxalifətçi deputatdır. Onun atası Kasaxda icra nümayəndəsidir. Qızı parlamentdə onun əleyhinə danışdı. O da getdi atasını həbsə, içəri atdı. Paşinyanın təbiəti belədir".

**Aygün Tahir**

# Müəllimdən unikal layihə

## “Fransız dilinin tədrisində faydalı onlayn qiymətləndirmə vasitələri” təqdim olunub




**Təhsildə İnkişaf və Innovasiyalar üzrə Qrant müsabiqəsi Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş qaydalara əsasən keçirilir.**

Bu qaydalarda nəzərdə tutulub ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi elan edir.

Məqsəd təhsil müəssisələrində təhsil işçiləri arasında rəqabətin stimullaşdırılması, onların innovativ fəaliyyətlərinin dəstəklənməsi, məktəblərdə təhsil işçilərinin fəallığının artırılması, reallaşdırmaq istədikləri islahatları, ideyaları, tədbirləri həyata keçirməkdir. Nəticə etibarilə layihənin icrası zamanı təhsil işçiləri layihə təklifetmə, icraetmə bacarığına yiyələnmiş olurlar.

**Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi 2017-ci ildən keçirilir. Bu il sayca beşinci olan qrant müsabiqədə fərdi kateqoriya üzrə Suraxanı rayonu A.Səfərov adına 114 nömrəli məktəbin fransız dili müəllimi Ülkər İsmayılovanın ”Fransız dilinin tədrisində faydalı onlayn qiymətləndirmə vasitələri” layihəsi qalib olub.**

Ülkər İsmayılova qeyd edib ki, fransız dilinin tədrisində faydalı onlayn qiymətləndirmə vasitələri layihəsini təklif etməkdə məqsədi ölkəmizdə tədrisin distant formada keçirilməsi, digər fənlərdə olduğu kimi fransız dilinin tədrisində də müəyyən çətinliklər yaratması olub:

”Hazırda sevərək çalışdığım Suraxanı rayonu A.Səfərov adına 114 nömrəli tam orta məktəbdə 200-ə qədər fransız dilini öyrənən şagird təhsil alır.

Sagird nailiyyətlərinin məsafədən qiymətləndirilməsi hər yerdə olduğu kimi bizdə də çətinliklərə səbəb olur. Məqsədimiz ölkədaxili həmkarlarla əməkdaşlıq etmək, şagirdlərə dərsləri birgə distant tədris etməkdir.

Bunun üçün fransız dili tədris edilən məktəbləri, müəllimləri seçmək, şagirdlərdə məsafədən qiymətləndirmə vərdişlərini formalaşdırmaqdır. Həmçinin fransız dili tədris olunan məktəblərdə müəllimlərlə onlayn görüş kecirərək layihədə birgə çalışırıq.

Layihədə Qazax, Ağstafa, Tovuz, Qəbələ rayonlarından və Bakı şəhərində fəaliyyət göstərən fransız dili müəllimləri fəal iştirak edirlər. Layihə təlimləri təlimat üzrə onlayn formada davam edir.

Bu günə qədər keçirilmiş təlimlərdə ”Evalbox”, ”Quizlet”, ”Crossword”, ”Bamboozle” kimi onlayn viktorina tipli qiymətləndirmə vasitələri ilə müəllimlər tanış olub və təlimlər çox böyük maraqla qarşılanıb”.

# Pandemiya təhsili daha çox vurdu

## Ali məktəblər işə başlasa da hələ də tədrisə qoşulmayanlar var

**Pandemiya səbəbindən sərhədlərin bağlı olduğu ölkələrdən Azərbaycanın ali məktəblərində təhsil alan əcnəbi tələbələrin gəlməsi ilə bağlı məsələyə aydınlıq gətirilib.**

Nazirlikdən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, 42 ölkədən olan əcnəbi vətəndaşların ölkəyə girişi mümkün olduğundan həmin ölkə vətəndaşı əcnəbi tələbələrin əyani tədrisdə iştirakı təmin edilir.

”Aktiv müvəqqəti yaşama icazəsi vəsiqəsinə sahib olan, digər ölkələrin vətəndaşları da əyani dərslərdə iştirak üçün ölkə ərazisinə daxil ola bilirlər. Digər əcnəbi tələbələrin əyani tədrisə cəlb olunması üçün aidiyyəti təşkilat qarşısında vəsatət qaldırıb, həmin şəxslərin ölkə ərazisinə girişinə icazə verilənədək əcnəbi vətəndaşların tədris prosesinin digər formalarda təşkili məsələsinə universitetlərin Elmi Şuralarının səlahiyyətləri çərçivəsində baxılması yerli ali təhsil müəssisələrinə tapşırılıb” - deyə məlumatda qeyd olunub.



*Azərbaycanda təhsil alan xarici tələbələrin bir qismi ölkəyə gələ bilmir*

Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən təhsil eksperti Kamran Əsədov bildirib ki, Azərbaycan təhsilindən tək Azərbaycan vətəndaşları deyil, həm də digər dövlətlərin vətəndaşları yararlanırlar. Ekspert qeyd edib ki, bu gün xarici ölkə vətəndaşlarının Azərbaycanda təhsili üçün yeni-yeni təşəbbüslər irəli sürülür: ”Azərbaycanda təhsil alan əcnəbi tələbələrə dövlət səviyyəsində diqqət göstərilir. Düzdür, ölkəmizdə təhsil alan əcnəbilərin sayına baxanda, dünyanın inkişaf etməkdə olan ölkələri ilə müqayisədə nəticənin ürəkaçan olmadığı görünür. Məsələn, Sinqapurun ərazisi Bakının yarısı boydadır. Amma buna baxmayaraq, Sinqapurun iki universitetində əcnəbi tələbələrin sayı ildə 80 min nəfər olur. Türkiyədə xaricdən gəlib təhsil alanların sayı 850 min, Rusiyada isə 240 min nəfərə çatır. Xarici ölkələrdən tələbələrin gəlməsi üçün ilk növbədə universitetlər ölkə təhsili tələblərinə və beynəlxalq standartlara cavab verməlidir. Amma biz bunları, təəssüf ki, universitetlərimizdə görə bilmirik. Eyni zamanda, təhsil müəssisələri verdikləri təhsili dünyaya çatdırmaq üçün ciddi aktiv piar aparmalı, xaricdə təhsil sərgilərində universitetlər iştirak etməli və təhsil xidmətlərini təqdim etməlidir. Bundan sonra ciddi uğurlara imza atmaq olar”.

**Ekspert vurğulayıb ki, xarici vətəndaşın universitetə qəbul əmri verildiyi gündən o, universitetin tələbəsi statusunu alır:** ”Azərbaycanda 1 il 8 aya yaxındır ki, pandemiyadır və bir sıra məhdudiyyətlər tətbiq edilir. Onlardan biri də xarici ölkə vətəndaşlarının Azərbaycanda təhsili ilə bağlıdır. Ölkəmizdə 22-29 sentyabrdan tədris bərpa ediləndən sonra xarici tələbələrin tam şəkildə tədrisə bərpasında müəyyən ləngimələr oldu. Belə ki, onların ölkəmizə girişi, vaksinasiya kimi məsələləri həll etmədikləri üçün hələ də tədrisə qoşulmayanlar var”.

**Aynurə Pənahqızı**

# Bakcell "Milli KSM Mükafatı 2020"-nin qalibləri sırasında

## Şirkətin pandemiya ilə mübarizəyə töhfəsi yüksək qiymətləndirilib



**Bakcell şirkəti ”Milli KSM Mükafatı 2020”-nin qalibi elan olunub. ”Yaxşı səhiyyə və Rifah” nominasiyasında təqdim edilmiş bu mükafat şirkətin xüsusi karantin rejimi dövründə Azərbaycan vətəndaşlarına dəstək göstərmək məqsədilə həyata keçirdiyi genişmiqyaslı tədbirlər planı çərçivəsində görülən işlərə görə təqdim edilib.**

Bakcell Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçid-buraxılış avadanlıqları, eləcə də koronavirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən ekspress-testlərin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bütün karantin mərkəzlərində çalışan həkimlərə və müxtəlif karantin mərkəzlərindəki vətəndaşlarımıza Bakcell tərəfindən ödəmə kartları hədiyyə olunub. Şirkət Bakının Binə qəsəbəsində yaşayan 650 aztəminatlı ailə üçün ərzaq yardımı proqramı həyata keçirib.

Bununla yanaşı, pandemiya dövründə abunəçi və əməkdaşlarının təhlükəsizliyini qorumaq, bu sahədə maarifləndirməni həyata keçirmək məqsədilə Bakcell uzunmüddətli məlumatlandırma və kommunikasiya proqramları həyata keçirib. Həmçinin, Bakcell öz əməkdaşlarına evdən işləmək üçün lazımi şərait yaradıb.

Artıq 3-cü dəfə təşkil edilən ”Milli KSM Mükafatı” müsabiqəsinin əsas məqsədi dövlət siyasətinin, Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial layihələrin davamı olaraq ölkəmizdə həyata keçirilən Korporativ Sosial Məsuliyyət layihələrinin və xeyriyyəçilik təşəbbüslərinin artmasına təkan vermək, həmçinin KSM layihələr həyata keçirən şirkətlərin fəaliyyətini daha geniş miqyasda təqdir etməkdir.

”Milli KSM Mükafatı 2020”-nin qaliblərini müəyyən edən Komissiyanın tərkibinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Asan Xidmət, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası (AQSİA) və Proaktiv PR Agentliyinin nümayəndələri daxil olub.

*Qeyd edək ki, 2020-ci il ərzində həyata keçirilmiş sosial layihələr aidiyyəti dövlət qurumlarının nümayəndələri tərəfindən təhlil edilərkən BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri əsas götürülüb.*

# "TikTok"da yayılanlar xeyrimizə işləmir

## “Hərbi qulluqçuların android telefonlarla çəkdikləri videoların qarşısı alınmalıdır”

**Ötən həftələrdə Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsi informasiya təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib.**

Bu cür situasiyalarda əksəriyyət tərəfindən real təhlükə obyekti kimi qiymətləndirilən ”TikTok”, ”İnstaqram” və digər sosial şəbəkələrə məhdudiyyət qoyulması nə dərəcədə məqsədəuğundur?

**Bu barədə ”Şərq”ə danışan hərbi ekspert Ramil Məmmədli bildirib ki, ümumi sosial şəbəkəyə yox, məhz təhlükə yarada biləcək informasiyaları sosial şəbəkələrə təqdim edən şəxslərə məhdudiyyət qoyulmalıdır:** ”İnzibati qaydada belə halların qarşısını almaq lazımdır. Deyək ki, məsələn, döyüşlərdə erməni tərəfdən alınan əsirlərin döyülmə anını əks etdirən bir video yayılıb. Əlbəttə, hər bir azərbaycanlı üçün milli təəssübkeşlikdən yanaşsaq, düşmən tərəfin döyülməsi məqbul və sevindiricidir. Amma məsələnin digər tərəfi də var. Sonradan bu videogörüntülər Azərbaycan dövlətinin hansısa bir beynəlxalq təşkilat qarşısında hesabat verməsinə gətirib çıxara bilər. Necə ki, 2020-ci ilin iyul ayında Tovuz döyüşlərindən sonra təmas xəttini keçən erməni kəşfiyyatçının döyülməsini əks etdirən video sonradan rezonans doğurdu. Bu mənada məsələnin mənbəyini aşkar etmək və qarşısını almaq lazımdır.




Ordumuz bizim başımızın tacıdır. Amma bəzi məqamlar var ki, onlara diqqət yetirmək lazımdır. Bu da döyüşlərdə çəkilən videogörüntülərin sosial şəbəkələrdə yer almasıdır”. Hərbi ekspert həmin videoların yayılma prosesinə diqqət çəkib: ”Döyüşdə iştirak etmiş hərbçi öz sevincini bölüşmək üçün video çəkir. Öz yaxınlarını sevindirmək məqsədilə həmin videonu onlardan birinə göndərir ki, onun qəhrəmanlığını görsünlər. Ya onun bu görüntüləri göndərdiyi, ya da sonrakı üçüncü, dördüncü şəxs onu sosial şəbəkələrdə paylaşır. Nəticədə bütün sosial şəbəkələr və mediada yayılır”. R.Məmmədli birmənalı şəkildə hərbi qulluqçuların android telefonlarla çəkdikləri videogörüntüləri yaymasının qarşısının alınmalı olduğunu vurğulayıb. Hərbi ekspert sonda yalnız belə olduqda problemin həllini tapacağını əlavə edib.

**Günəş Mərd**

# “Virusun yeni variantlardan narahatıq”

## Türk alim: “Hər il kovid peyvəndi vurdurmalıyıq”



**”BioNTech”in qurucu ortaqlarından biri, professor Uğur Şahin koronavirus peyvəndi ilə bağlı açıqlamasını paylaşıb.**

Medicina.az xəbər verir ki, U.Şahin peyvəndin təfərrüatlarını və peyvəndlə bağlı proqnozlarını bildirərək, ildə neçə dəfə peyvənd etdirməyin mümkün olduğunu söyləyib:

”Dördüncü aydan sonra peyvəndin təsiri azalmağa başlayır və altıncı ayda bu azalma sürətlənir. İkincisi, bu peyvənd ağır xəstəliklərin qarşısını alır. Koronavirus peyvəndi olanlar xəstəliyi daha yüngül şəkildə keçirirlər Bizim peyvənd artıq iki doza olaraq təsdiqlənib. Əhəmiyyətli olan odur ki, peyvəndin üçüncü dozası qorunmanı yenidən artırır. İki dozadan sonra qorumanın daha uzun sürəcəyini gözləyirik”.

”Hazırda dördüncü doza koronavirus peyvəndinin təsiri və nə vaxt edilməsinin lazım olduğuna dair heç bir araşdırmamız yoxdur. Virusun yeni variantlardan narahatıq və biz bilirik ki, koronavirusa qarşı qorunmanı yenidən 95 %-ə çatdıra bilərik”, - deyə professor bildirib.

Alim vurğulayıb ki, ildə bir dəfə koronavirus peyvəndi edilməsi kifayətdir.

### Təbrik edirik!

Əzizimiz **Taryelin** 2 yaşı tamam olur. Bu münasibətlə onu atası İlyas, anası Nərgiz, bacısı Solmaz, babaları Taryel və Həsənağa, nənələri Rəvanə, Solmaz, əmisi Yusif, bibisi Müsəmbər, dayısı Pərviz ürəkdən təbrik edir, ona möhkəm cansağlığı arzulayır, xoşbəxt, şən və firavan böyüməsini diləyirlər.



# Pərvinə maşın hədiyyə ediblər

## Lakin aktrisa onu geri çevirib



**Aktrisa Pərvin Abıyeva ”Qısa Qapanma” verilişində ona maşın hədiyyə etmək istəyən şəxslə bağlı açıqlama verib.**

”Şərq” xəbər verir ki, P.Abıyeva vaxtilə ”Maşın” şoudan öz istəyi ilə çıxandan sonra ona telefon zəngi gəlib.

Aktrisa həmin anları belə anladıb: ”Mənə zəng etdilər ki, sizə maşın hədiyyə göndərirəm. Kim olduğunu bilmirəm. Dedim, Allah razı olsun, çox sağ olun. Vallah, billah, qəbul etmədim”.

**Aygün**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2429




# 3 yaşlı qızın ölümü araşdırılır

## Ailənin 8 üzvü barəsində müvəqqəti həbs qərarı çıxarılıb



**Mərsinin Gülnar bölgəsində itkin düşən, 10 gün sonra isə cəsədi tapılan 3 yaşlı Müslümə Yağalın ölüm səbəbini araşdıran istintaq orqanı ailənin 8 üzvü barəsində müvəqqəti həbs qərarı çıxarıb.**

Ailənin 8 üzvü prokurorluğa aparılıb və onların ilkin ifadələri alınıb. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, 3 yaşlı Müslümənin itkin düşməsi, günlərlə axtarılmasına rəğmən tapılmaması, sonunda isə cəsədinin aşkarlanması ölkəni sarsıtmışdı. Müslümənin nədən itkin düşdüyü və ölüm səbəbinin aydınlaşması məqsədilə İstanbul Ədli Tibb Qurumunun ailənin 8 üzvü barəsində hansı arayış verəcəyi gözlənilir. Müslümənin ata və anası elə körpənin cəsədi tapıldığı gecə polisə aparılıb və onlardan ifadələri alınıb. İfadələri alındıqdan sonra valideynlər və Müslümənin qardaş və bacıları 3 gün polis şöbəsində nəzarət altında saxlanıb. Və onlar Müslümənin dəfn mərasimində iştirak etməyiblər. Ailə üzvləri tibbi müayinə olunmaq üçün Gülnar Dövlət Xəstəxanasına aparılıb, oradansa təkrar polis şöbəsinə gətiriliblər. Bu arada Silifke Cümhuriyyət Başsavcılığı Müslümənin ölümü ilə bağlı məlumatların yayılmasına qadağa tətbiq edib.

**Məlahət**





# "Sosial media saxtadır"

## Selena Qomez "ağıl sağlığı"nı müdafiə edəcək şirkət qurur



**Mükəmməllik standartlarının ağıla zərər verdiyi iddiasında olan amerikalı məşhur müğənni və aktrisa Selena Qomez bu istiqamətdə başlatdığı mübarizəni kifayət qədər tutarlı yatırıma çevirmək niyyətindədir.**

Müğənni hesab edir ki, mükəmməllik real ola bilməz. İnsanlardan davamlı mükəmməl olmalarını tələb etmək isə ağıla, düşüncəyə, zehnə zərər verir, insanı reallıqdan çıxarır, nəticədə insan ruhi sarsıntı keçirməyə başalyır, özünü - əsl kimliyini itirir. Bu düşüncələrdən çıxış edən müğənni mübarizə çərçivəsində media şirkəti qurmaq qərarına gəlib. Vaxtilə Selena Qomez "kəpənək xəstəliyi" (stress , ultrabönəvşəyi şüalardan yaranan xəstəlik) və bipolar pozuntu (depressiyaya gətirib çıxaran ruhi əsəb xəstəliyi) ilə mübarizə aparıb. Son 5 ildə isə bu yöndə fəallıq nümayiş etdirməyə başlayıb. Müğənni həmçinin sosial medianın da saxta olduğunu iddia edir və bu istiqamətdəki çalışmalarını daha da fəallaşdırmaq üçün "ağıl sağlığı"nı müdafiə edəcək şirkət qurmağa qərar verib. Şirkətin adı isə "Wonder Mind" olacaq. Müğənni "məqsədim real olmayan gözəllik standartlarını yıxmaqdır. Bu süni gözəllik standartları zehni sağlamlığımıza mənfi təsir edir. Bunu özüm hiss etdim və bir çox belə insan tanıyıram", deyir. Müğənni özünü - ağlını qorumaq üçün tez-tez sosial media hesablarını bağlayır.

**Məlahət**



# Bircə mesaj, görüntü bəzən bəs edir

## Koronavirus xəstələri bir kəlmə xoş sözdən belə sağalmağa başlayır

**Ankara Yıldırım Bəyazid Universiteti reanimasiyada yatan xəstələrin əhval-ruhiyyəsinin yüksəldilməsinə yönəlik layihənin icrasına başlayıb. "Ahabertürk"ün məlumatına görə, layihə reanimasiyada yatan COVİD xəstələri üçün ailə üzvləri, doğmaları ilə məsafədən bağlantı yaratmaqdır.**

Oksigen aparatına bağlı yataq xəstələrinə tibb bacıları, həkimlər planşet, smartfon təqdim edir və yaxınları ilə ünsiyyət qurmaq, söhbət etmək, görüntülü danışmaq imkanı yaradırlar. Beləliklə də xəstəni və yaxınlarını nigaranlıqdan azad edirlər. Xəstə əzizlərini, əzizləri də onu da görür. Layihə haqqında "ahabertürk"ə danışan Ankara Yıldırım Bəyazid Universitetinin müəllimi Esma Kabasakal bildirir ki, reanimasiya şöbələri xəstənin təcrid olunduğu, bəzən hətta barmağının belə tərpədə bilmədiyi qədər pərişan halda olduğu yerdir. Eyni zamanda çox zaman da həyata vida edilən məkandır. Burada olanlar bəzən doğmalarına, yaxınlarına son sözlərini söyləmək imkanından məhrum olur. Doğmalarını, sevdiklərini, ailə üzvlərini son dəfə dünya gözü ilə görmədən həyatla vidalaşır. Xüsusilə də koronavirus pandemiyası dövründə reanimasiya şöbələrinin ağırlığı bir də on qat artdı. "Adi" xəstəliklər, keçirilən əməliyyatlar sonrası ailə üzvləri xəstənin palataya köçürülməsini səbirsizliklə gözləyir ki, doğması ilə qısa da olsa görüşə bilsin. Koronavirus zamanı isə məhz real yoluxma təhlükəsi ilə hətta ən kiçik təmasa da izn verilmir. Reanimasiyada yatan COVİD xəstələri də bu səbəbdən doğmaları ilə, ailə üzvləri ilə nə danışa bilir, nə də üzlərini görə bilirlər. Nəticədə içəridə yatan da kədərli, çöldə onun həyatına görə narahatlıq keçirən də. Ən pisi də budur ki, intizar çəkən hər iki tərəfdir. Və bir-birinin narahat olduğunu da bilirlər. Bu isə xəstənin əhval-ruhiyyəsinə mənfi təsir edir, nəticə etibarilə sağalma müddətini ləngidir. Layihə "Reanimasiya xəstələrini yönəlik ailə qarşılıqlı təsir layihəsi" adlanır. **Ə.Kabasakal bu layihəni çox lazımlı və uğurlu hesab edir:**

***Reanimasiyada yatan xəstələrə ailələri ilə əlaqə saxlamağa şərait yaradılır***

"Reanimasiya şöbələrində yatan xəstələrin vəziyyəti anidən dəyişə bilir. Sağalmağa doğru da, vəfata yönəlik də. İnsanlar bəzən ölümdən sadəcə, bir addım uzaqda dayanır. Belə vəziyyətdə xəstəyə mənəvi dəstək olmaq olduqca vacibdir. Bunu xəstənin doğmalarından, yaxınlarından ən yaxşı kim edə bilər? Məsələ, təkcə xəstəyə mənəvi dəstək vermək də deyil, eyni zamanda xəstə yaxınlarını da intizardan xilas etməkdir. Bir xəstəyə ailəsindən gələn mesaj, bir paylaşım, bir foto bilsəniz nə qədər müsbət təsir edir. Xəstə var ki, övladının bir kəlmə sözüylə canlanır, həyata bağlanır, sağalmağa başlayır. Biz bu layihəni məhz ağır vəziyyətdə olan, ölümlə həyat arasında çırpınan insanlar üçün icra etməyi vacib bildik". Layihəni icra edən tibb işçiləri xəstənin yaxınlarından alınan mesajları oxuyur və ya xəstənin özünə oxutdurur. Ailə üzvləri tərəfindən çəkilib göndərilən videoları izlədirlər. Bu layihə 50 nəfərlik qruplarda təcrübədən keçirilib. Nəticələr inanılmaz dərəcədə müsbət olub. Ağır vəziyyətdə olan xəstələrdə müsbət dəyişikliklər qeydə alınıb, orqanizmin gücləndiyi müşahidə edilib. Layihə ilə bağlı Türkiyə Səhiyyə Nazirliyinin razılığı alınıb, yaxın zamanda ölkə üzrə tətbiqinin reallaşdırılması mümkün görünür.

**Məlahət Rzayeva**

# Hər gün bir banka köpüklü pivə içir

## 107 yaşlı qoca uzunömürlülüyünün sirrini açıqlayıb



**107 yaşlı avstraliyalı Bid Krok uzunömürlülüyünün sirrini pivə adlandırıb.**

**O, hər gün bir banka köpüklü pivə içdiyini deyib.**

**"LADbible" yazır ki, qadın pivənin sağlamlığı gücləndirdiyinə inanır. Bid Krokun qızı isə bildirib ki, anasının uzunömürlü olmasının səbəbi müntəzəm idman etməsidir. (publika.az) Yaşlı qadın 40 ildən artıqdır ki, gimnastika ilə məşğul olur.**

# 2,5 milyon lirə dəyəri var

## Sibel Can aksesuarları ilə diqqət çəkib



**6 ildən sonra ilk dəfə gecə klubunda çıxış edən müğənni Sibel Can 2,5 milyon lirə dəyərində olan aksesuarları ilə diqqət çəkib.**

**Axşam.az xəbər verir ki, gecə üçün 2 fərqli geyim seçən ifaçı libaslarını ilan şəkilli boyunbağı və nar fiqurlu tək daş üzüklə tamamlayıb.**

**O, öncə qırmızı, sonra isə qara əlbisə geyinib. "Kral" adlı ilan şəkilli boyunbağının 100 əyyar olduğu bildirilib. Onun paltarının eynisində isə bir müddət əvvəl dünyaca məşhur model Gigi hadid fotosessiya etdirib.**

# "Nu, poqodi!" cizgi filminin davamının treyleri təqdim olunub



**"Soyuzmultfilm" kinostudiyası "Nu, poqodi!" ("Düşərsən əlimə") sovet cizgi filminin davamının treylerini təqdim edib.**

**Apa-nın TASS-a istinadən verdiyi məlumata görə, video studiyanın "YouTube" kanalında yerləşdirilib.**

**Cizgi filmi "Nu, poqodi! Tətil" adlanacaq, hadisələr çimərlikdə və attraksionlar parkında baş cərəyan verir.**

# Dünyada ilk ali məktəb...

## Türkiyənin Harran bölgəsində XII yüzilliyə aid mədrəsə qalıqları tapılıb





**Dünyanın ən qədim yaşayış məskənlərindən biri kimi UNESCO tərəfindən qorunan, Mədəni İrs siyahısında yer almış Türkiyənin Harran bölgəsi Ören Yerində XII yüzilliyə aid mədrəsə qalıqları tapılıb.**

Arxeoloji qazıntılar mədrəsənin dünyadakı ilk ali məktəb - universitet olduğunu təsdiqləyir. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Ören Yerindəki qazıntılar 8 il davam edib. Türkiyənin AA müxbirinə açıqlamasında Harran Universitetinin Arxeoloji Bölümü və Harran Ören Yeri Qazıntıları başqanı professor-doktor Mehmet Önal deyib ki, Harranın dünyanın ən qədim yaşayış məskənlərindən biri olması səbəbiylə burada arxeoloji qazıntılara həmişə böyük maraq var və hər dəfə də daha bir dəyərli tapıntı üzə çıxarılır. Builki qazıntılar zamanı enli küçələr, memorial darvaza və mədrəsə kimi önəmli tapıntılar aşkarlanıb. Bundan əvvəlsə Ulu Cami və Çarşı Hamamının qalıqları tapılmışdı. Önal qeyd edib ki, XII yüzilin dahi şəxsiyyətləri - Battani və Sabit bin Kurrə ilə yanaşı Harranda daha 300 elm adamı yaşayırmış: "Bu il ilk dəfədir ki, universitet qalıqları ilə qarşılaşırıq. Harranda, ümumiyyətlə, 5 mədrəsə, 5 böyük universitet şəhərciyi olduğu məlum idi. Builki qazıntılar zamanı torpaq üstündə 24 otaq müəyyənləşdi. 5 otaq və mədrəsənin tağlı giriş qapısı tamamilə aydın görünür. Otaqların yanında geniş ocaq yeri və təndirləri olan mətbəx var. Buradan belə nəticəyə gəlinir ki, mətbəx çox sayda insana xidmət edirmiş. Ocaq və təndirlərdə kiçik buynuzlu heyvan sümüklərinə rast gəlinir. Deməli, burada yemək hazırlanırmış, Moğolların yürüşündən xəbər tutanlar yeməyi ocaqda qoyaraq canlarını götürüb qaçırmışlar. Qazıntılar davam edir. Bu tikilinin 80 metr genişliyində ölçüyə sahib olduğunu deyə bilərik". Harranda elmin inkişafı Miladdan 3 min əvvələ aid edilir. Burada astronomiya, riyaziyyat, fəlsəfə və ilahiyyat elmləri öyrənilirmiş. Bu faktlar dünyanın ilk universitetinin məhz Harranda fəaliyyət göstərdiyini söyləməyə əsas verir.

**Məlahət**